GÜNDOĞAR

Qəzet 1931 - ci ildən çap edilir | NEFTÇALA RAYON QƏZETİ | 29 FEVRAL 2024 - cü il, № 2(68064)

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "XALQI HƏMİŞƏ MƏNƏVİYYAT BİRLƏŞDİRMİŞDİR. ÇÜNKİ BAŞQA ƏSASLARA NİSBƏTƏN MƏNƏVİ ƏSASLAR DAHA ÜSTÜNDÜR!"

ZƏFƏRİN DAVAMI, YENİ TARİXİ DÖVRƏ İNAMLA!

7 Fevral tarixində respublikamızda keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri uğurla nəticələndi

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

Andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri **Fərhad Abdullayev** çıxış edərək dedi:

- Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içdi:

- Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin

təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda, aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda, Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. təslimçi ordu kimi təqdim etdik. Bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq sübut etmişlər və 44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərmişdir, Azərbaycan xalqının iradəsini göstərmişdir, Azərbaycan dövlətinin gücünü göstərmişdir. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun Ordumuz geriyə addım atmamışdır, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq, eyni zamanda, İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur, bizim qarşımızda ağ bayraq qaldırmışdır, təslim olmuşdur və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatdı.

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir. Kapitulyasiya aktında hər şey açıq-aydın göstərilmişdir. Düzdür, bəzi öhdəliklər yerinə yetirildi, o da məcburən, qorxudan. Çünki İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə vurdu ki, onlar uzun müddət ərzində özlərinə gələ bilmirdilər. Ancaq vaxt keçdikcə gördük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürülür, onlar yenidən o çirkin əməllərindən əl çəkmək istəmirlər. Biz isə haqlı olaraq tələb edirdik ki, bütün şərtlər və öhdəliklər icra edilməlidir. Ermənistan özü bu öhdəliklərin altında imza atmışdır. Onların arasında, ilk növbədə, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı yol bağlantısı öhdəlikləri dururdu və üç il ərzində bu öhdəliklərin yerinə yetirilməsi məsələsi öz həllini tapmamışdır. Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin.

Üç il ərzində biz yenə də səbir göstərmişdik, biz yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir.

➡ 2

AZƏRBAYCAN TARİXİNİN ƏN PARLAQ SƏHİFƏLƏRİNİ YAZAN LİDER!

1 Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il

ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmayıb, hətta əlavə silah-sursat göndərib, minalar göndərib, bizə qarşı mina terroru davam edib, daha geniş vüsət almışdır. Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar.

Ona görə antiterror əməliyyatı qaçılmaz idi. Ermənistan mövqeyində təzadlı məqamlar artıq bir qayda kimi müşahidə olunur. Əgər Ermənistan tərəfindən bir həftə təzadlı, bir-birini inkar edən hər hansı açıqlama verilməsə, biz artıq şübhə etməyə başlayırıq ki, görəsən, nələr baş verir. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan və 2022-ci ilin oktyabr ayında bunu bəyan edən dövlət, digər tərəfdən bizə qarşı ərazi iddialarından əl çəkmirdi. Bunu, həm onların açıqlamaları göstərirdi, həm də onların qanunları, o cümlədən onların əsas qanunu bunu göstərir, eyni zamanda, separatçı qüvvələrə Ermənistan rəhbərliyi tərəfindən göndərilən təbrik məktubları göstərirdi. Bunu görmək istəməyənlər, bu gün Ermənistanın arxasında durmağa çalışanlar bilməlidirlər ki, heç nəyi gizlədə bilməyəcəklər.

Bizim ərazi bütövlüyümüz tam bərpa olunmalı idi və biz İkinci Qarabağ müharibəsindən sonra bu məqsədə doğru məqsədyönlü şəkildə addımlayırdıq. İndi bütün hadisələri yenidən dilə gətirməyə ehtiyac yoxdur, Azərbaycan xalqı hər şeyi bilir və hər şeyi yadda saxlayır. Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın-Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq.

Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, - bundan sonra da bu işlər davam edəcək, - heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

Biz çox güclü hərbi sənaye kompleksi yaradırıq, artıq bunun birinci mərhələsi başa çatdı. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq. Necə ki, siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfıra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq.

Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya faktiki olaraq Üçüncü Dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq bu Üçüncü Dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir. İkinci Dünya müharibəsi ilə bugünkü müharibələri müqayisə etmək belə mümkün deyil və təbii ki, bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu artıq 20 ildən çoxdur ki edirik və bu gün bizdə əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim Ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu, bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur. Bizim **üstünlüyümüz ondan ibarətdir ki, Ordumuz döyüş meydanında öz gücünü göstərib, Ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq.**

Biz, eyni zamanda, sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan-İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması, eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir.

Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. ***Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir.***

4

UNUTMADIQ, XOCALI!

PREZİDENT İLHAM ƏLİYEV: "İlk dəfədir ki, Xocalı soyqırımı gününü biz Xocalıda günahsız Xocalı qurbanlarının xatirəsini anaraq qeyd edirik. Otuz iki ildən sonra biz doğma torpağımıza qayıtmışıq. Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün bu gün burada – 26 fevral günündə memorial kompleksin təməli qoyulacaq. Onu bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdir. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım. Ona görə ki, sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq"...

Neftçala rayonunda Xocalı faciəsinin 32-ci ildönümü ehtiramla yad edildi

Xocalı faciəsinin 32-ci ildönümü münasibətilə Neftçala şəhərinin mərkəzində yerləşən Xocalı faciəsi qurbanlarının əziz xatirəsinə ucaldılan abidə Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri, din xadimləri, şəhid ailələri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri tərəfindən ziyarət olunub.

Xocalı faciəsinin 32-ci ildönümü münasibətilə Neftçala rayon Heydər Əliyev adına Mərkəzdə anım tədbiri təşkil edilib. Tədbirdə Neftçala Rayon Dövlət Rəsm Qalereyasının təşkil etdiyi Xocalı qurbanlarının xatirəsinə həsr olunan rəsm sərgisinə baxış keçirilib. Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların və Xocalı soyqırımı şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filarə İsmayılova, əsirlik həyatı yaşayan Yaşar Abduləliyev Xocalı soyqırımının Azərbaycan tarixinə ən dəhşətli, amansız faciəli səhifələrindən biri olduğunu, xalqımızın yaddaşına qara hərflərlə yazıldığını qeyd edərək, qan yaddaşımızın heç zaman unudulmayacağını bildiriblər. Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində həyata keçirdiyi vacib qərarlar, layihələr haqqında məlumat verilib. Bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çoxəsrlik tariximizdə bənzəri olmayan Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub. Xocalı şəhəri separatçılardan təmizlənib. Tədbir Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təqdim etdiyi "Qisas" tamaşası ilə başa çatıb.

26 fevral tarixində həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamına uyğun olaraq "Xocalı soyqırımı" qurbanlarının xatirəsinə ağacəkmə aksiyası da keçirilmişdir.

SƏYYAR GÖRÜŞLƏR DAVAM EDİR

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun rayonun müxtəlif ərazilərində əhali ilə səyyar görüşləri fevral ayında da davam etmişdir. Ayın ilk həftəsindən rayonun Aşağı Surra və Xıllı qəsəbəsində, davamlı olaraq Qırmızıkənd, I saylı Mayak və Sübhi kənd sakinləri ilə görüşlər təşkil edilmişdir. Səyyar görüşlərdə hər bir ərazi üzrə İƏDN-nin əməkdaşları məruzə edərək mövcud vəziyyət haqqında məlumat vermişlər. Eyni zamanda görüşlərdə çıxış edənlər seçilmiş maarifləndirici mövzular haqqında - "Milli birliyimiz, Azərbaycan xalqının güc mənbəyidir", "Azərbaycan xalqı 7 fevral tarixində xoşbəxt gələcək naminə əbədi inkişafa hə!- dedi", "Əzəli və əbədi Azərbaycan -Türkiyə qardaşlığı sarsılmazdır!" - ətraflı məlumat veriblər.

Görüşdə çıxış edən Neftçala RİH-in başçısı cənab Mirhəsən Seyidov 44 günlük Vətən müharibəsindən, müharibədə iştirak edən vətən oğullarının igidliyindən, döyüş yolundan, 2022 - ci ilin sentyabr ayının 12-dən 13-nə keçən gecə və 10 aprel 2023-cü il tarixində düşmənin təxribatı zamanı hərbçilərimizin qəhrəmancasına döyüşməsindən, döyüşlər zamanı ordumuz üçün əhəmiyyətli yüksəkliklərin əldə olunmasından, düşmənin təxribatının qarşısını alarkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalan oğulların şücaətindən, 2023-cü ilin sentyabr ayında keçirilən lokal antiterror tədbirləri zamanı ölkəmizin suverenliyinin tam bərpa olunması, antiterror tədbirləri zamanı heç bir mülki obyektə, heç bir vətəndaşa zərər verilməməsi, 14 dekabr tarixində əsirlərimizin düşmən tərəfin əsirləri ilə azad olunması, işğaldan azad olunan ərazilərimizdə və Neftçala rayonunda görülən yenidənqurma işləri haqqında görüş iştirakçılarına məlumat verib.

Səyyar qəbulda sakinlər rayonda aparılan abadlıq-quruculuq işlərilə əlaqədar təşəkkürlərini bildiriblər, daxili yolların təmiri, rayon ərazisinə çəkilən yeni su xətti vasitəsilə kənd ərazisində yeni su qülləsinin quraşdırılması, tibb məntəqəsinin təmiri, kənd tibb məntəqəsində uşaq həkiminin olmaması, "Kapitalbank" ASC-ə məxsus bankomatın qurulması, elektrik xətlərinin yenidən qurulması, qəsəbə daxili yolların işıqlandırılması və digər məsələlər ilə əlaqədar təkliflər səsləndiriblər. Vətəndaşların səsləndirdikləri ümumi problemlər ayrı-ayrılıqda dinlənilib və məsələlər müzakirə olunub, digər problemlərin həllinin araşdırılması üçün qəbuldan sonra müvafiq şöbələrə və şəxslərə tapşırıqlar verilib.

2 FEVRAL GƏNCLƏR GÜNÜ QEYD OLUNDU

Neftçala Rayon İcra Hakimiyyətinin təşəbbüsü, rayon Gənclər və İdman İdarəsinin və Şirvan - Salyan Regional Təhsil İdarəsinin Neftçala rayon təhsil sektorunun təşkilatçılığı ilə Neftçala rayonunda "2 Fevral – Azərbaycan Gəncləri Günü" münasibətilə tədbir keçirilib.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, RİH-i aparatının məsul şəxsləri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları və gənclər iştirak edib.

Tədbirdən öncə Neftçala şəhərində ucaldılan Ulu Öndər Heydər Əliyevin əzəmətli heykəli və şəhid Mehman Səfərovun büstü ziyarət olunub, tər gül dəstələri düzülüb, ehtiramla yad olunub.

Tədbir Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda can fəda edən şəhidlərimizin xatirəsinin yad edilməsi ilə başlayıb. Çıxış edənlər gənclərin cəmiyyətimizdə fəaliyyətindən, Ulu Öndər Heydər Əliyevin gənclərə verdiyi dəyərdən, bu yolda onların layiqli xidmətinin vacibliyindən danışıblar.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov Gənclər günü münasibəti ilə gəncləri təbrik edib və onlara uğurlar arzulayıb. Tədbirdə rayonun ictimai, siyasi həyatında fərqlənən və uğurlar əldə edən gənclər Fəxri Fərmanla təltif olunublar.

PREZİDENT İLHAM ƏLİYEV: "Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir "...

2

Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz.

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılara qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq Qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq. Bizim birliyimiz bu səylər qarşısında bir sədd kimi durmalıdır və durur. Bu istiqamətdə bundan sonra da lazımi addımlar atılacaq. Təbii ki, cəmiyyət, vəzifəli şəxslər, dövlət qurumları burada vahid siyasət aparır və bu siyasət gündəlik həyatda özünü göstərir.

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, - 40 tunel və 90 körpü, - inşa edilir. Yəni, bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək.

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir. Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Bu, ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.

Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir.

Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Deyə bilərəm ki, bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək.

Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün istər sənaye inkişafı sahəsində, istər hərbi sənaye kompleksi sahəsində və ümumiyyətlə, hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. İkinci Qarabağ müharibəsi zamanı hər kəs bunu gördü, antiterror əməliyyatı zamanı da. Təbii ki, Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və Bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir. Ancaq texniki vasitələr az rol oynamır. Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq. Ona görə texnoloji inkişafla bağlı hədəflər müəyyən edildi, bütün aidiyyəti qurumlara tapşırıqlar verildi və bu iş əlbəttə ki, böyük bir səfərbərlik tələb edən işdir. Sadəcə olaraq, dövlət siyasəti burada yetərli deyil. Biz əlbəttə ki, yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır. Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur, bəlkə də ictimaiyyət o qədər də məlumatlı deyil. Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik. Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar. Biz, - İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, - sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir.

Digər vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, artıq işlərə start verildi. Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro – su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək. Biz iqlim dəyişikliyi məsələlərinə də öz töhfəmizi vermiş olacağıq, xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a - dünya miqyasında ən böyük beynəlxalq konfransa ev sahibliyi edəcəkdir. Ona görə bərpaolunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib.

Ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir.

Təbii qazla bağlı. Biz artıq səkkiz ölkəyə təbii qaz ixrac edirik. Tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, biz kömək edək. Bax, bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir.

Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə. Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur.

6

QALİB XALQIN SEÇİMİ - XALQ ÖZ LİDERİNƏ İNANIR!

MÖHTƏŞƏMLİK: 7 FEVRAL - TARİXİ SEÇKİ GÜNÜNÜN TƏƏSSÜRATLARI

Ulu Öndər Heydər Əliyev: "Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır!"

Respublikamızın hər yerində olduğu kimi rayonumuzun Yenikənd kəndindəki 28 saylı səsvermə məntəqəsində də 7 fevral 2024-cü il tarixində "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri" şəffaf və demokratik şəraitdə keçdi. Ötən seçkilərlə müqayisədə tarixi 7 fevral günündə səs verənlərin daha çox mütəşəkkilliyi, şəffaflığı və demokratikliyi fikrimizin təbii mayası kimi – "İnsanların qəlbində isti yuva qurmaq əsl xoşbəxtlikdir" – desək, heç də yanılmarıq. Onu da deyək ki, 28 saylı seçki məntəqəsinin əhatə dairəsində olan Yenikənd, Qırmızı Şəfəq və Qaravəlli yaşayış məntəqəsindən olan seçicilər səhər tezdən öz qəlblərinin hökmü ilə doğma Prezidentlərinə səs vermək üçün dəstə-dəstə məntəqəyə axışırdılar. Bu da xalqın öz Müzəffər Ali Baş Komandanına olan sədaqətindən, el sevgisindən, Ali rəhbərə olan məhəbbətdən, inamı olanların onun ətrafında daha sıx birləşmək istəyindən xəbər verirdi.

Bir daha xüsusi vurğulamağı lazım bilirəm ki, səhərin ab-havasında 28 saylı seçki məntəqəsində böyük canlanma vardı. Çoxsaylı seçicilər Seçki marafonuna qoşularaq öz qəlblərinin hökmü ilə doğma Prezidentlərinə səs vermək üçün toy-bayram ab-havasında dəstə-dəstə buraya axın edirdilər. Beləliklə, səhər tezdən səsvermə məntəqəsində sözün əsl mənasında bir möhtəşəmlik duyulurdu. Çoxları bu bayram ab-havasının möhtəşəmliyini mobil telefonlarının yaddaşına köçürərək onu əbədiləşdirirdilər.

Onu da deyim ki, səhər tezdən səsverməyə gələnlər qabaqcadan ayrılan rahat mikro avtobuslarla gəlmişdilər. Öz avtomobilində gələnlər də az deyildi. Bu da sakinlərin necə yaşamasından, onların gün-güzəranlarının günbəgün yaxşılaşmasından soraq verirdi.

Artıq saniyələr, dəqiqələr ötdükcə vaxt da öz işini görməkdə idi. Müşahidəçilər qeydiyyatdan keçib öz işlərini sahmanlayırdı. Komissiya üzvləri seçki prosesinə hazır idilər. Beləliklə, məntəqə sədri kimi optimal vəziyyəti nəzərə alıb səsverməni 15 dəqiqə tezləşdirdim. Məntəqədə 7^{45}- də seçkilərin başlanmasına start verildi. Seçki qanunları məcəlləsinə müvafiq səs verənlər hüquq qaydaları çərçivəsində şəffaf və büllur şəkildə öz səsvermələrini reallaşdırırdılar. Məntəqədə səs verənlər ; - ağsaqqal və ağbirçəklər öz doğma prezidentlərinə xeyir-dualarını verməkdən də yan keçmirdilər. Öz söz-söhbətləri ilə məntəqədə yenilikçi mühiti yaradırdılar. Beləliklə, günün birinci yarısında səsvermə prosesinin tempi daha da yüksəldi. Tarixi günün saat 11-12 intervalı effektiv səsvermənin pik nöqtəsi oldu.

Günün ikinci yarısı əvvəlcədən razılaşdırılmış qaydada evlərə daşınar qutu göndərildi. Xəstəliyi ilə əlaqədar məntəqəyə gələ bilməyən seçicilərin də səsverməsi təmin edidi.

Beləliklə, tarixi gün ərzində səsvermə məntəqəsində ahəngdar işin mötəşəmliyi hər an duyulmaqda idi.

Odur ki, səsvermə məntəqəsinin sədri kimi tarixi əlamətdar gündə ümumi işin optimallaşdırılmasında əməyi olan yüzbaşılardan **Böyükkişi Babayevin, Zaman Əliyevin, Məmmədağa Səfərovun, Tahir Məmmədovun, Lazım Ələkbərovun, Rövşən Allahverdiyevin** işgüzar işini vurğulamağı lazım bilərdim.

Məntəqənin seçki günündə müsbət işimizi rövnəqləndirən müşahidəçilərdən Elnarə Əliyeva, Kəmalə Qardaşova, Kənan Məmmədcanov, Aygün Babayeva, Əfsunə İbrahimova, Telli Aslanova, Şəhla Dadaşova, Məryəm Mirmahmudqızı və Vaqif Əliyev bizimlə daha yaxın oldular. Onu da deyim ki, məntəqədə səsvermə günündə iştirakçıların iaşə xidməti də yetərincə oldu. Obyekt rəhbəri Əfsunə İbrahimovanın göstərişi ilə işçilərdən Zümrüd Mustafayeva, Solmaz Əliyeva göndərilən ərzaq ləvazimatlarını yetərincə yerbəyer edərək bizim üçün süfrə hazırladılar. Əlbəttə ki, bu da vacib şərtdir. Bəli, sınanmış ifadədir ki, **"Gücümüz Birliyimizdədir!"**

Seçkiqabağı keçirilən çoxsaylı maarifləndirmə tədbirləri, seminar-treninqlər ümumi işimizin müsbət nəticəsinə çox kömək oldu.

Seçki işləri ilə bağlı İƏD-nın rəhbəri Şəhriyar Ələkbərovun, Bələdiyyə sədri İmamnəzər Nağıyevin, Neftçala Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri Sadiq müəllimin əvəzsiz köməyi və mənəvi dəstəyi ilə görəcəyimiz işlər daha da yaxşılığa doğru yönəldi.

Beləliklə, sadalananların əməyi və zəhməti sayəsində 28 saylı səsvermə məntəqəsinin yekun işi rayon seçki dairəsində qüsursuz iş kimi qəbul edildi.Təbii ki, bu da 28 saylı səsvermə məntəqəsinin müsbət işi kimi möhtəşəmliyimizin ümumi sevinci kimi dəyərləndirilə bilər.

Seçicimiz Gəncə Aqrar Universitetinin Aqronomluq fakültəsinin məzunu, həmin universitetin magistrı - Əliyev Mirqədir Kamran oğlu seçki haqqında təəssüratlarını bizimlə bölüşdü:

"Bugünkü əlamətdar seçki ölkə Prezidentinin 20-illik iqtisadi inkişaf yolumuzun möhtəşəmlik zirvəsidir. Sözün əsl mənasında milli qürurumuzun şah əsəridir".

Seçkinin mənalı anlarını duyumlayan, daşınan qutuya səs atan şəhid anası **Sitarə Mustafayeva da ölkəmizdə şəhid ailələrinə olan əvəzedilməz qayğıdan danışdı.** Ölkə Prezidentinin ünvanına kəndimizin şəhid anaları adından öz nikbin arzularını söylədi.

Səsverməyə gələn seçici Şəhla Cavadova da səsvermə zamanı öz təəssüratını söylədi: ***"Qaynım Cəlil Cavadov I Qarabağ döyüşlərində şəhid olub. Qisas qiyamətə qalmadı. Şəhidlərimizin qanı alındı. Oğlum Cəlil oxuyub hərbçi oldu. İndi oğlum Cəlil Cavadov Milli Ordumuzda xidmət edir. Yüksək rütbəli zabitdir. Allah şəhidlərimizi qəni-qəni rəhmət eləsin. Bütün qazilərimizə can sağlığı diləyirik. Başın sağ olsun, Vətən! Var olsun Müzəffər Ali Baş Komandanımız!"***- dedi.

7 fevral 2024-cü ildə, tarixi seçkilərdə müşahidəçi kimi iştirak edən Vaqif Əliyev də xoş sözlərini vurğuladı. Müsahibimiz Fərəc Mustafayev adına Yenikənd tam orta məktəbinin direktor müavinidir. Vaqif Əliyev ölkə Prezidentinin ünvanına xoş sözlərini bildirdi: ***"Biz Vətənimizin inkişafına, xoş gələcəyinə inanaraq seçim etmişik!"***

Beləcə, tarixi gündə saatlar bir-birini əvəz etdikcə axşamüstü səs verməyə gələnlər məntəqənin işinə də yeni rəng qatırdılar. Məntəqədə hər işin öz ahəngi duyulurdu. Bu arada vaxt tapıb digər müşahidəçilərin də seçki günü ilə bağlı xoş təəssüratlarını dinlədim:

Müşahidəci Elnarə Əliyeva - F. Mustafayev adına Yenikənd kənd orta məktəbinin direktoru. Onun dediklərindən: ***"Bu gün ölkəmizdə demokratik seçkilər keçirilir. Milli dəyərlərimizin qorunaraq inkişaf etdirilməsi xalqımızın nüfuzunun daha da yüksəlməsinə gətirib çıxarıb. Ulu Öndərimizin şah əsəri olan Azərbaycan bu gün dünyada siyasi və iqtisadi cəhətdən qüdrətli dövlət kimi tanınır".***

Müşahidəçi Telli Aslanova - Sübh kənd İbtidai məktəbinin direktoru: ***" Ölkəmizdə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərimiz Heydər Əliyevin müəyyən etdiyi strateji siyasi xətt uğurla həyata keçir. Möhtəşəmlik zirvəsində məntəqə sədri kimi mən də öz qəlbimin hökmü ilə öz fikrimi bəyan etdim. Dünya şöhrətli siyasətçi İlham Əliyev xalqın qəlbində özünə ləyaqətli yer tutan bir azərbaycanlı övladıdır. Səmimi insan, bəşəri ideyalara malik şəxsdir. Onun qapısı hamı üçün hər zaman açıqdır".***

Bəli, Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dövlətimizin ərazi bütövlüyünün, xalqımızın şərəf tarixinin yazılmasında apardığı mübarizəni, fədakarlığı heç zaman unutmayacaqdır.

Sözlərimi şair qələmindən yaddaşlara köçən aşağıdakı misralarla bitirmək istəyirəm:

Bir alov, bir od ki, haqdan yanarsa,
Onu qasırğalar söndürə bilməz!
Allah ucaldanı dünya qopsa da,
Heç kəs yüksəklikdən endirə bilməz!

Ağalar Ağayev,
Bankə qəsəbə sakini, təqaüdçü müəllim,
Yenikənd kənd 28 saylı səsvermə məntəqəsinin sədri,

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib

4 Təbii ki, bu da cəfəngiyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir.

Təbii ki, biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.

Azərbaycan o ölkələrdəndir ki, açıq dənizlərə çıxışı yoxdur. Ancaq buna baxmayaraq, dediyim o səbəblərə görə bu gün biz nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Getdikcə rolumuz artacaq, bizə müraciətlər də çoxalacaq, necə ki, bu gün xahişlə müraciət edirlər ki, "bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır" və sair, burada da eyni mənzərə olacaqdır.

Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik.

Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, - bunu hamı bilir, - daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bəzən eşidirik ki, hansısa ölkələr, yaxud da ki, ölkələr qrupu beynəlxalq ictimaiyyət funksiyalarını öz üzərinə götürmək istəyir və beynəlxalq ictimaiyyət adından danışmağa çalışır. Sözü olmayanda deyir ki, beynəlxalq ictimaiyyət bu məsələni yaxşı qəbul etməz, beynəlxalq ictimaiyyət o məsələni yaxşı qəbul etməz. Birincisi, bu, təvazökarlıqdan uzaq olan məsələdir. Məhdud sayda olan hər hansı 20-30 ölkə beynəlxalq ictimaiyyət adından danışa bilməz, o ki qaldı bir ölkə, ümumiyyətlə, danışa bilməz. Beynəlxalq ictimaiyyət isə bizim tərəfimizdədir və İkinci Qarabağ müharibəsi zamanı, antiterror əməliyyatı zamanı beynəlxalq ictimaiyyət bizi dəstəkləmişdir. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu hesab edirəm ki, heç kimə sirr deyil.

Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayrıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

İslam Əməkdaşlıq Təşkilatı da həmişə - həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda müsəlman dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Əlbəttə ki, bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

Qoşulmama Hərəkatı. Baxmayaraq ki, biz sədrliyi artıq təhvil vermişik, biz üçlükdə təmsil olunuruq. Qoşulmama Hərəkatı bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu, olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, Qoşulmama Hərəkatı bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, əlbəttə, biz bunu edəcəyik.

Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar.

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

x x x

Bununla da təntənəli andiçmə mərasimi başa çatdı.

MÜQƏDDƏS YOLUN ŞAHİDLƏRİ, ÖLÜMSÜZ MÜCAHİDLƏR!

ONLAR FEVRAL AYINDA DOĞULMUŞLAR...

Vətən müharibəsi şəhidi leytenant Məhəmməd Bəxtiyar oğlu Zeynalov 23 fevral 1997-ci ildə Neftçala rayon Bankə qəsəbəsində anadan olmuşdur. Bankə qəsəbə 1 saylı tam orta məktəbin məzunu olan Məhəmməd Zeynalov ıx sinifdən C. Naxçıvanski adına hərbi liseyə daxil olur. Liseyi bitirdikdən sonra təhsilini davam etdirir, H. Əliyev adına AAHM məktəbinə daxil olaraq təhsilini uğurla başa vurur. Leytenant rütbəsində Mingəçevirdə xidmət edən Məhəmməd Zeynalov Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edir. Cəsurluq, qorxmazlıq, vətən sevgisi onun ömrünə şəhadət yazır.

16 oktyabr 2020 - ci ildə leytenant Məhəmməd Zeynalov Tərtər rayonu Çaylı kəndi istiqamətində aparılan ağır döyüşlərdə Vətən tarixində əbədiyyətə ucalır. Ruhu şad olsun. Leytenant Məhəmməd Zeynalov subay idi, üç bacının tək qardaşı, ailənin dördüncü övladı idi. Ruhu şad, məkanı behişt olsun. Allah səbir versin bütün şəhid ailələrinə. Leytenant Məhəmməd Zeynalovun Vətən qarşısında xidmətləri dəyərləndirilmiş, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və s. medallarla təltif edilmişdir.

U N U T M A D I Q

Vətən müharibəsi şəhidi Səid Zəfər oğlu Cəfərov 4 fevral 1993-cü ildə Neftçala rayon Xol Qarabucaq kəndində anadan olmuşdur. Orta təhsilini Mürsəqulu kənd məktəbində almışdır. Səid Cəfərov 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2013-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. 2013-2014-cü illərdə Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində, 2014-2017-ci illərdə Qazax rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2017-ci ildən isə Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi. Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olan Səid Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə, həmçinin Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Səid Cəfərov noyabrın 9-da Şuşanın azad edilməsi zamanı şəhid olub. Baş çavuşu Səid Cəfərovun Vətən qarşısında xidmətləri dəyərləndirilmişdir. Cəsur Vətən övladı "Vətən uğrunda". "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və s. medallarla təltif edilmişdir. Ruhu şad olsun. Allah səbir versin əzizlərinə.

Şair, yazıçı, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü ZAUR ƏRMUĞANIN "Yovşan ətri" povestindən...

(əvvəli qəzetimizin yanvar sayında)

... Suyun üzəri ilə axan sarı, boz, qırmızımtıl yarpaqlar kanalın ortasından qıraqlarına doğru üzür, köpüklərin gur axını olan yerlərdə aşağıya batıb alt lay ilə kənarlarda üzə çıxırdı...

Sədaqət qabları arabadan götürüb yerə qoydu. Əyilərək vedrəni suya batırır, iri dəmir qabları doldurmağa başladı.

Birdən o, suya düşən kölgədən diksindi. Ağ atın belində əda ilə oturmuş cüssəli, boylu-buxunlu, cavan oğlanın əksini görəndə özünü itirdi; o, əlini havada saxlayıb gözlərini suya zillədi. Utandığından başını yuxarı qaldırmaq istəmədi, amma belə hərəkətsiz də dayanmaq olmazdı. Nə edəcəyini bilmədi. Oğlanın nəzərində çaşqın görünməsin deyə başını işə qatmaq istədikdə qəhqəhəli gülüş səsi bənizini qızartdı. Qız başını qadırıb arxın kənarından oğlanı süzməyə başladı.

-- Salam. Sabahınız xeyir! Görürəm, Hənifə xala bu soyuqda sizi yenə xəstələndirmək istəyir. Heç insafdırmı, belə havada suya gəlmək?

-- Birdən ikiyə mənim xəstələnməyimi görübsünüz? -- Qız ayağa qalxdı.

Oğlanın dili tutuldu, sifətinin rəngi dəyişdi. Dedi:

-- Yox! Heç vaxt görməmişəm!

-- Bəs onda niyə belə danışırsınız?

Oğlan bir söz deyə bilmədi. "Nə bilim?!" mənasını verən asta hərəkətlə başını yana tərpədərək gözlərini qızın üz-gözündə, saçlarında, əlində gəzdirdi.

Bu dəfə isə Sədaqət bərkdən gülərək şirin bir istehza ilə dilləndi:

-- Yoxsa, məni Hənifə xalanızdan çox istəyirsiniz? Qorxursunuz ki, mənə soyuq dəyər?

Araya ani sükut çökdü. Qız özünə xas çevik hərəkətlə dilləndi:

-- Elə ürəkdən çəkdiniz anamın adını, elə bil doğma xalanızdır. -- Əda ilə güldü.

Sədaqət bu oğlanın kim olduğunu bilməsə də, onun qonşu yurddan buradakı obaya gəldiyini anladı. Ciddiləşdi, əsəbi bir tərzdə qeyri-adi görkəm aldı. Oğlan özünü itirmədi. Dedi:

-- Sizə kömək edə bilərəm. -- Oğlan ağ atın belindən düşdü.

-- Yaxın gəlməyin! -- Qız təşvişə düşübmüş kimi həyəcanlanmağa başladı, sonra qətiyyətli bir tövrlə dedi:

-- Köməyə ehtiyacım yoxdur! Özüm bacararam!

Tələsik öz işinə davam etdi. Onun yanaqları qızarmışdı. Bu, oğlanın diqqətindən yayınmadı, əksinə qızın belə görkəmi onun xoşuna gəldi. Lakin bunu büruzə vermək istəmədi. O, arxa su dalınca gələn bu gözəl, yaraşıqlı gənc qızla söhbət etmək, fürsət tapıb onu daha da yaxından tanımaq fikrinə düşdü. Sədaqət bunu hiss etdi. Oğlan dilləndi:

-- Axı niyə etiraz edirsiniz? Burada nə var ki? Sizə kömək etmək istəyirəm.

-- Dedim ki, yolunuzla gedin!

Oğlan duruxdu:

-- Necə istəyirsiniz! Amma nahaq yerə əsəbiləşirsiniz. Mən nə dedim axı?

-- Sən nə deyə bilərsən axı?!

-- Oho! Bax bunu heç bilmirdim! -- Ürəkdən güldü.

Ağ atı çapıb getdi. Sədaqət əlini işdən saxlayıb oğlanın arxasında oğrun-oğrun boylandı. Dodağı qaçdı. Yanaqları çökəkləndi. Bu cür təbəssüm ona çox yaraşırdı.

Sədaqəti fikir götürmüşdü: obaya gedən bu oğlan kimin evinə qonaq düşəcək, görəsən? Bir də oğlanın onu haradan tanıdığını bilmək istəyərdi, hətta anasının da adını çəkdi, atasını isə bu mahalda tanımayan yoxdur. Bircə bu oğlanın adını, onun kim olduğunu biləydi. Sədaqət bu düşüncələr içərisində ikən onda şübhəli fikirlər doğuran suallara səbirsizliklə cavablar axtarırdı.

***

Hənifə arvad həyətdəki təndiri qalamışdı. Təndirin içi od kimi isti idi. Təndirin iç divarı qaralıb ağarmışdı.

Əlləri ilə közün odunu, hənirini yoxladı. Od yaxşı idi; çörək yapmaq olardı. Təndirin üç yandan açılan dəlikləri külpələrlə qapadılmışdı ki, içərisi isti qalsın.

Arvad qolçaqlarını geyinib palçıqlı su ilə dolu qabdan əskini götürərək təndirin ağzına şirə çəkdi. Başqa bir qabdan ovcuna duzlu su alıb təndirin ocağına səpəndə elə bil közün cızdağı çıxdı. Beləcə közün odu azca sönükür, çörəyin yapılarkən ötməsinin, yəni yanmasının qarşısı alınırdı.

Belini əyib teştin içərisinə yığdığı kündənin o üz-bu üzünə duzlu su çəkərək bir-bir təndirə yapdı. Kündələr cərgə-cərgə, iki sıra boyunca təndirə yapılırdı. Çörək kütə getməsin deyə, yapılan kündəyə duzlu suya çəkdiyi əli ilə, barmaqları ilə toxunurdu, belə olanda kündə təndirə yaxşı yapılır, yaxşı da bişirdi.

Həyətin iri taxta darvazası taybatay açılanda Sədaqət arabanın təkərlərini cırıldada-cırıldada boz ürgə ilə içəri girdi. Hənifə təndirin yanından evin qarşısında dayanan qızına səsləndi:

-- Lap vaxtında gəlib çıxmısan. Çörəklər bişib. Bura gəl. Bir tikə ağzına at. Yol yorub səni.

-- Sağ ol, ana. Əllərinə sağlıq, bərəkətli olsun!

-- Allah ürəyincə versin, başına dönüm.

Sədaqət yaxına gəlib isti təndir çörəyindən bir tikə kəsdi. Dilinin üstünə qoydu. Dadlı çörəyi iştaha ilə yedi. Sevincək dilləndi:

-- Anacan, su dumduru! Qabları doldurub gətirdim.

-- Maşallah!

-- Sən işini gör, mən də suyu boşaldım çəlləklərə.

-- Gözünə dönüm, ay bala. Yorulmusan, bir az otur.

-- Sonra oturaram. At acdı. Əməlli ol ha, kündə kütə gedər! -- Qız əlləri ilə təndirin ağzına qoyulan teşti bir az yuxarı qaldırdı. Dadlı çörək ətri burnuna, nəfəsinə doldu. -- Süfrən bərəkətli olsun, təndirin çörəkli, ay ana!

-- Dilinə qurban olaram. Səni xoşbəxt olasan!

Çəlləkləri gətirdiyi arx suyu ilə doldurduqdan sonra iri, ağır qabları evin arxasındakı anbara apardı. Atı arabadan ayırdı. At rahatlandı. Ot damından yava ilə bir çəngə ot gətirib boz ürgənin qabağına atdı. Arabanı qovaq ağacının altına çəkdi.

Hənifə qolçaqlarını çıxarıb əlinə iti uclu bıçaq götürdü. Təndirə yapdığı çörəklərin arxasında ilişib qalan daşları bıçağın ucu ilə bir-bir çıxarmağa başladı. Çörəkləri teştə yığıb başı üstünə qoyanda öz-özünə pıçıldadı:

-- Ay belim! Ay canım!

***

Əzəmət barmağını günə tutub dayandı. Kölgəsinə baxdı. Bununla vaxtı təyin edir, günortanı öyrənmək istəyirdi. Cib saatını unudub evdə qoymuşdu. Bildi ki, artıq günortadır. Sürünün arası ilə dolaşıb Alapaçanın tərkində dikdən endi. Cınqı lap qabaqda dolanır, Alabaş, Alaş, Yelli də yanlarda gəzişirdi.

Atdan enib yenə tüfəngini, çomağını üstünü quş batırmış ağca qayaya söykədi.

Ocaq çatdı. Xurcundan sərnici götürüb koxasını əlinə aldı. Koxanın haçalı ucunu qumral qoyunun arxa qıçına ilişdirdi. Heyvan qaça bilmədi. Qumral qoyunu tutub südünü sərnicə sağdı. Başına çəkib içdi. Sonra ocaqda kartof közərtdi. Təndir çörəyi və motal pendiri ilə ağzını marçıldada-marçıldada yedi.

Hava yumşalmışdı. Yağış da kəsmişdi daha. Göy üzündə üstünə yumurta sarısı çəkilmiş yuxaya bənzər yupyumru günəş elə görünürdü ki, saçaq-saçaq şəfəqlər adamın gözünə sancılırdı. Lakin yenə qara bulud haradansa özünü yetirir, günün qabağına örtük kimi çəkilirdi. Əzəmət Alapaçaya baxanda at ağnayırdı: heyvan bədənini yerə yaxırdı. Başının arxasını boynunun altında qalan quru qarağana sürtür, ayaqlarını ora-bura ataraq dırnaqları ilə torpağı cırmaqlayırdı. Əzəmətə yaxşı məlum idi ki, at ağnayanda havalar xoş keçir. Axı atlar çox həssas heyvandırlar, onlar havanı hiss edir, iqlimin necə dəyişəcəyini duyurlar. Əgər at kişnədisə, demək, yağış yağacaq, üst-başını təmizləyərsə, onda qar düşəcəyi gözlənilir. Alapaça isə indi ağnayırdı, Əzəmətin ürəyi güldü. At onun dostu, qardaşı idi. O, ata elə inanırdı ki, elə bil ən əziz, ən yaxın, doğma bir adamla ülfət qurur, mehribanlıq edirdi. Axı çox sınaqlardan çıxmışdı Alapaça. Bir dəfə isə sürüyə hücum çəkmək istəyən çaqqalların qəfil gəlişini xəbər vermişdi Əzəmətə. Əzəmətin yadında idi: "Qıvraq tüklü papağı da başında, sırıqlısının üstündən geyindiyi yapıncının içərisinə qısılıb yerə çökmüş, bərk yatmışdı. Hava bərk şaxtalı idi. Üç gündən bəri yağan qar hələ də ərimək bilmirdi. Qar yeməsin deyə, örüşdən qabaq tövlədə heyvan-qaraya su içirtmiş, sonra sürünü örüşə çıxartmışdı kişi. Çünki heyvan çöldə qar yeyəndə ota baxmır, susuzluğunu yatırtmaq üçün qar yemək istəyir. Bərk qar düşəndə isə heyvanlar çölə buraxılmaz, onlara damda, qəhəldə qulluq olunardı. İndi isə üç gün idi ki, qar ərimir, heyvan çöl otuna həsrət qalmışdı. Yenə də qar yağırdı. Lap xırda-xırda, düyü dənəsi boyda qar elə hey quru-quru yağırdı. Hava həm də küləkli idi. Bir tərəfdən də yağış səngimək bilmirdi. Əsil çovğun idi. Çovğundan itlərin səsinə yuxudan ayıla bilməmişdi, onda sahibinin yanına gələn Alapaçanın ayaq səslərinə oyanmışdı Əzəmət. At ayaqlarını yerə möhkəm döyəcləyib təhlükə baş verdiyini sahibinə bildirmişdi. Alapaçanın ayaq tappıltılarına oyanan Əzəmət yapıncısını başından atmış, əlindəki tüfəngi dikdirdən aşağıda otlayan sürüyə uzaqdan hücum etmək istəyən çaqqallara sarı tuşlamışdı. Bir-birinin ardınca atdığı güllələri havaya boşaltmışdı. Axı çaqqalları qovan itlərə güllə dəyə bilərdi. Buna görə də ehtiyatlı davranmaq lazım idi. Tətiyə toxunan bircə barmaq hərəkəti ilə qəfil atəş açılar, itlər tələf olardı. O çovğunda sürüyə düşən çaxnaşma yaddan çıxan deyildi; çaqqallar qovuldu, birini isə Cınqı ilə Yelli parçalamışdı." Alapaçanın indi ağnaması isə həqiqətən Əzəmətin xoşuna gəlmişdi.

Gün əyilirdi. Sürünü obaya sarı sürmək lazım idi.

***

Yatağından dik atıldı, elə bil üzünə sillə çəkdilər. Qulağına dəyən ilk səs it hürüşməsi olmuşdu. Əzəmət hövlnak tüfəngini əlinə alıb qapıdan bayıra çıxdı. Arvadı Hənifə də səsə oyandı.

-- Vay! Vay! Bu nə qəzadır düşdük?! Allah, özün saxla! -- Arvad sırınmanı tələsik əyninə keçirib başına şal atdı, ərinin dalınca evdən həyətə endi. O, çırağı əlinə götürməyə macal tapa bilmişdi.

-- Canavarlardır! Cınqının səsinə ayılmışam!

-- Əzəmətin üz-gözündə ağır bir tələş, qorxunc həyəcan vardı.

Arvad iki əlini də zərblə qıçlarına çəkərək dedi:

-- Özündən muğayat ol, ay kişi! -- Sonra iki əlini də yuxarıya qaldırıb göylərdən pənah istədi. -- Aman, ay Allah! Sən özün kömək dur!

Əzəmət tüfəngdən iki atəş açdı: güllələrin ikisi də bir-birinin ardınca göyə atıldı.

-- Görüm, səni lənətə gələsən! -- Əzəmət hay-həşir qoparır, hirsindən dodağını gəmirir, canavarın qaranlıqda parıldayan gözlərini oyub yerə tökmək istəyirdi.

Qışqırıq, hay-küy, çığır-bağır səsi bütün həyət-bacanı bürüdü. Bir azdan Sədaqət də özünü yetirdi. Qızın başı açıq, ayaqları yalın idi. Gecənin ayazı onu üşütmürdü. O, tələşdən və qorxudan titrəyirdi. Əlində iri saplı bel tutmuşdu. Əzəmət də, Hənifə də, Sədaqət də itlərin arxasınca canavarlara qarşı birlikdə hücuma keçmişdilər.

Canavarlardan biri arxa ayaqları ilə tövlənin altını qazımışdı. Sonra burnunu dəlikdən içəriyə salanda qoyunlar ürkmüşdü. Canavarların biri də həyətdəki itlərin başını tovlamaq üçün qəhəlin, ağılın, damın yan-yörəsində gözə görünməklə o biri canavara torpağı qazımaq üçün vaxt fürsəti vermişdi. Nəticədə tövlənin altını qazıyan canavar içəri girib qoyun-quzunu parçalamaqdan ötrü canını əldən salmışdı. Cınqı, Yelli, Alabaş, Cəldayaq, Alaş və Sarıbaş həyətdə fırlanan canavara baş qataraq bu gizli və məkirli fənddən duyuq düşüncə hücumun qarşısını almaq və təhlükəni ərazidən sovuşdurmaq üçün qantərə batmışdılar.

➔ 8

MÜTALİƏ ETMƏK - ÜNSİYYƏTDƏ, PEŞƏKARLIQDA, MÜBARİZƏDƏ GÜCLÜ AMİLDİR!

Şair, yazıçı, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü ZAUR ƏRMUĞANIN "Yovşan ətri" povestindən...

Şair, yazıçı, publisist Zaur Ərmuğan(Əsgərov Zaur Eyvaz oğlu) 1979 - cu ildə Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. 2002 - ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 2006 - cı ildən şeir, hekayə, oçerk, məqalə və digər yaradıcılıq nümunələri ilə dövri mətbuatda müntəzəm çap olunur.

2012 - ci ildə "Günəş ömrü istəyirəm" adlı ilk şeirlər kitabı işıq üzü görüb. 2023 - cü ildə "Tanrı payı..." adlı ikinci şeirlər kitabı çap edilib. Zaur Ərmuğan 2019 - cu ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Yazarlar" jurnalı redaksiyasının heyət üzvü və redaksiyanın Neftçala bölgə təmsilçisidir. Hal-hazırda Neftçala rayon Mirqurbanlı kənd T. İsmayılov adına tam orta məktəbində müəllim işləyir. Ailəlidir. İki övladı var.

7 ← İtlərin hamısı bir-biriləri ilə sözləşiblərmiş kimi hərəsi bir yandan canavarın üzərinə şığımışdılar. Həyət-bacanı qoruyan itlərdən biri -- çox fərasətli və sahibinə həmişə vəfalı Qızıl isə duyuq düşərək gecənin qaranlığında xəlvətə çəkilib tövlənin altını qazıyan canavarın hənirini hiss edə bilmişdi. İtlərdən ayrılıb təkbaşına tövləyə sarı burulmuş, canavarların məkrli planını alt-üst etmək üçün zülmətin içindən şimşək kimi od çaxmışdı. İndi isə it arxadan atılaraq ağzı ilə canavarın boynundan yapışmağa çalışırdı. Burnunu tövlənin divarı altından içəriyə dürtən canavar bədənini qısır, qabaq ayaqlarını boğazına sıxaraq dəlikdən keçmək üçün özünə yer eləmək istəyirdi. O, dal ayaqlarının iti caynaqları ilə ona hücum çəkən Qızılın qarnını yarmaq üçün fənd işlədirdi. Canavarın niyyəti baş tutmadı: o artıq Qızılın dişləri arasında idi.

***

Daha Əzəmətin gözlərinə yuxu gəlmədi. Sobaya odun qoydu. Yunlu qoyun dərisi üzərində oturub əllərini isidir, pəncərənin şüşəsindən qaranlıqda gözə dəyən itlərin həyətdə gəzişməsinə nəzər yetirirdi. Bayırda sulu qar yağırdı. Sonra ayağa qalxdı. Arvadı Hənifəni yuxudan oyatmaq istəmədi. Sübhdən yenə çölə çıxmaq üçün özü yır-yığış etməyə başladı.

Sədaqətin qara gözləri, zərif siması, dodaqlarının təbəssümü, ürəyə yatan xoş səsi, uzun saçları, boy-buxunu, görkəmi şirin bir xəyal olub yaddaşında əks olunduqca bu fikri başından çıxara bilməyəcəyinə Fərrux əmin idi. O gün arx üstündə dedikləri, Sədaqətin cavab olaraq ona söylədikləri, onların hər ikisinin gülüşü -- bütün bunlar indi Fərruxun gözləri qabağından çəkilmir, qəlbini, ruhunu, düşüncəsini rahat buraxmırdı. Sədaqətin atası Əzəməti mahalda tanımayan yox idi. Fərrux da bu kişini ta uşaqlıqdan tanıyırdı. Axı onlar da qonşu obada olurdular. Əzəmət kişinin arvadı Hənifə xalanı da çoxdan tanıyırdı. Bunu da dəqiqliyi ilə anlayırdı ki, Əzəmətin özü, elə Hənifə arvad da onu tanıyır və bilirlər ki, Fərrux qonşu obada yaşayan Zəki kişinin oğludur, üstəlik anası Gülzarla da lap əvvəldən tanış idilər. Kolxoz vaxtı bütün qadınlar kimi, Hənifə və Gülzar da birlikdə tarlaya çıxmış, alağa, pambıq yığımına getmişdilər. Fərruxun indi də qulaqlarında anasının bir vaxt danışdığı sözlər səslənirdi: "Əzəmətin arvadı Hənifə bacı sağ olsun ki, həmişə mənə kömək əlini uzadır, kisələrə gücüm çatmayanda bir ucundan da o yapışır, mən də ona kömək edirəm, bir-birimizə əl tuturuq, çox mehriban, xeyirxah adamdır! "Fərruxun yadında idi ki, hələ uşaq vaxtlarında çölə gedəndə anası Gülzar onu da özü ilə tarlaya aparır, ana-bala birlikdə sahədən pambıq dərirdilər, Hənifəni də elə buradan tanıyırdı. Atası Zəki kişi isə kolxozda sürücü işləyirdi; o, QAZ-53 sürürdü. Əzəmətə isə briqadirlik işi tapşırılmışdı və o ona həvalə edilən bu vəzifənin öhdəsindən layiqincə gələn, həm də ciddiliyi ilə seçilən, ötkəm adam idi. Hamı bu adamı işcanlı, sözükeçər, ağıllı və bacarıqlı bir insan kimi qiymətləndirirdi, hələ indiyəcən onun bir sözünü iki eləyən olmamışdı. Kolxozun sədri Balaqədir kişi nahaq yerə demirdi ki, kaş hamı sənin kimi işə belə can yandıraydı, ay Əzəmət!" İndi bunların hamısını gözlərinin qarşısından keçirərkən o vaxtkı adamların sifəti, görkəmi, səsi, hərəkətləri, dedikləri sözlər, cürbəcür söhbətlər -- hamısı bir-bir Fərruxun xəyalında canlanırdı və onda o, uşaq idi, on iki-on üç yaşları olardı, anası Gülzar kimi Hənifə xala da, atası Zəki kimi Əzəmət kişi də belə yaşlı deyildilər, onda kolxoz sədri Balaqədir kişi də sapsağlam idi və bu dünyada yaşayırdı. Fərrux çox düşünürdü və nə qədər fikirləşirdisə, Sədaqətin uşaqlıq çağını xatırlaya bilmirdi, yəqin, uşaq olanda ona rast gəlməmişdi, görmüş olmuşdusa da, yadına salmaqda çətinlik çəkirdi. O yalnız obadakı toyların birində Sədaqəti gözləri ilə görmüşdü, bunu isə bütün təfərrüatları ilə xatırlayırdı. Onda Sədaqət toy yerinə ana-atası ilə birlikdə gəlmişdi: "Yay təzəcə girmişdi. Aylı, ulduzlu, toylu-büsatlı, gözəl bir axşam idi. Tərəkəmə obalarına səs yayılmışdı ki, Bahadur kişinin oğlu Tahirin toyudur, məclisə Aşıq Sadıq gələcək. Mağar həyətdə qurulmuşdu. Şirin, səslisədalı bir toy axşamı bütün oba əhlinin könlünü oxşadı onda, düz sübhə kimi çalıb-çağırdılar, deyib-güldülər, çəpik çalıb oynadılar. Aşıq Sadıq telli sazını sinəsinə basıb xoş avazla oxuyur, Balaban Kərəm ovurdlarını şişirib asta-asta çalır, Zəfər kişi də qara zurnasının şirin sədasını bu obadan o obaya yayırdı. Ortalığa girib qol qaldıran kim, Tərəkəmə rəqsini mağarın içində qum üstə ayaqyalın oynayan kim... Hamı bu xoş günə sevinirdi. Tahirin anası dünyasını erkən dəyişdiyindən Bahadur kişi həm ata, həm də ana olmuşdu oğluna. Xoşbəxt bir gün idi; təzə ailənin təməli qoyulurdu. Tahir də bu gündən sonra ev-eşik, oğul-uşaq, ailə sahibi olacaqdı. Bahadurın gözlərindən axan sevinc yaşları oğlunun xoşbəxtliyini görən atanın çin olmuş arzusu idi. Bu gün üçün ağlamaq olardı, axı bundan ötrü gecəsini gündüzünə qatmış, canını oda yaxmışdı Bahadur. Bu qədər uzun və bir belə ağır əziyyətlərdən sonra necə könlün dolmaya, necə sevinməyəsən ki, bütün ömrün boyu bu günü gözləmisən. Aşıq Sadığın telli saz üstə dediyi qoşma, gəraylı və bayatılar şipşirin nəğmə olub ruhu oxşadıqca şux avazının ritminə uyğun cəzbedici rəqsi də hər kəsin marağına səbəb olurdu. Kərəm dayının yastı balabanı isə başqa bir aləm idi. Kişinin ifası məclisə elə bir gözəllik, elə təravət bəxş edirdi ki, yığnağa toplaşanların hər biri buna ancaq "Əhsən!" deyə bilərdi. Dolu sifəti şişmiş, ovurdları köpmüş, qalın qaşlarının altından parıldayan şişkin gözləri elə işıqlanırdı ki, onun məzəli simasını görüb təbəssümə qərq olmamaq mümkünsüz idi. Gözünü yumub zurnasını çığırdan Zəfər də sanki özünü unutmuşdu o gün, Aşıq Sadığın gah sağına, gah da soluna keçib baməzə rəqs edir, göz-qaş oynadaraq Balaban Kərəmə çiyin atır, dirsəyi ilə onun kürəyini dümsükləyərək şirin gülüşmə yaradırdı...Tərəkəmələrdə belə bir adət vardır: əvvəlcə elçilik, ondan sonra nişantaxdı, nişanın ardınca xınayaxdı, kəbinkəsdi, daha sonra paltarkəsdi, ayaqaçdı, axırda isə böyük toy, ən axıra isə toydan sonra keçirilən əlgördü mərasimi olardı... Böyük toy idi, Tahirin toyu. Gəlini ertədən oğlan evinə gətirmişdilər. Qızlar, arvadlar mağarın bir bucağında yığışıb toya tamaşa edir, yaşlı kişilər isə içəridəki uzun taxta oturacaqlarda əyləşmişdilər. Cavan oğlanlar isə mağardan kənarda durub baxır, yalnız salxeyirin icazəsi ilə ortalığa girib oynayanda içəriyə daxil olurdular. Bu hər yerdə -- bütün tərəkəmə elində bir adət idi: böyüyün böyük, kiçiyin də kiçik yeri vardı... Sədaqəti toya tamaşa edən qızların arasında görəndə təsəvvür də etməzdi ki, bir gün gələr, o zaman görüb tanıdığı, gözəlliyi ilə diqqətini çəkən yaraşıqlı gənc xanımı sevə bilər Fərrux. O vaxtdan tanımışdı qızı. Bilmişdi ki, Əzəmət kişinin qızıdır bu və anası Hənifə arvadla toya gəlibdir..." Sonralar öyrənmişdi ki, toy sahibi Bahadur kişi vaxtı ilə briqadir Əzəmətlə bir yerdə rəhmətlik Balaqədir dayının sədrlik etdiyi 1May kolxozunda işləyibmiş, odur ki, əziz, şad gündə oğlu Tahirin toyuna dəvət edibmiş bu ailəni. Eşitdiyinə görə, bu ailələr mehriban, bir-birilərinə qarşı səmimi və xoş münasibətdə olublar, ona görə də yığışıb ailəvi toya gəliblərmiş o vaxt. Sədaqət də belə yadında qalmışdı Fərruxun. Aradan iki il keçməsinə baxmayaraq, arx üstündə görən kimi tanımışdı Sədaqəti və buna çox sevinmişdi o.

Səhər açılmışdı. İndi öz evlərində kürəyini xalıya söykəyib bu düşüncələri şirin bir xatirə kimi xatırlayanda ürəyi gülür, ruhu durulurdu. "Sədaqətin səsindəki məlahət onun zərif vucuduna necə də yaraşır!" fikri onu bu barədə də düşünməyə sövq edirdi. Fərrux yenə at belində o yolları dolaşıb arx üstündə Sədaqəti görmək istəyirdi. Sədaqətin səsini eşitmək, bir də üzünü görmək necə də böyük xoşbəxtlik olardı. Atına təzə nal vurdurmaq məqsədi olmasaydı, Nalbənd Ramazangilə də üz tutmaz, o gün Sədaqəti arx üstündə görə bilməyəcəkdi Fərrux. Bəlkə, nə vaxtsa, qarşısına çıxacaqdı bu qız, amma o gün -- at nallandırmaq dalınca obaya yol götürməsəydi, kim bilir, taleyi hansı qapını döyəcəkdi. Odur ki, Sədaqəti gördüyü üçün çox sevinirdi. Düşünürdü ki, bəlkə də, bəxtinə yazılan elə bu qızdır. Sədaqətin xəyalını beynindən çıxara bilmədiyinə bütün varlığı ilə əmin idi Fərrux. Ona da əmin idi ki, bundan sonra da onsuz bir dəqiqə belə yaşaya bilməyəcəkdi. Özü öz qəlbini duyur, ürəyinin səsini eşidirdi. O, Sədaqətə vurulmuşdu, özü də dəlicəsinə vurulmuşdu... Fərruxu bir şey də düşündürürdü: Sədaqət də onu seməcəkdimi?

(*Ardı "Gündoğar"ın növbəti saylarında...*)

ZAUR ƏRMUĞAN

ŞƏHİD

Sipər oldun zərbələrə,
Sinə verdin qəlpələrə,
Zirvələrdən zirvələrə
Hər dağı ucaldan şəhid.

Sən bir savaş fatehisən,
Azərbaycan tarixisən.
Əbədiyyət taleyisən,
Torpağı ucaldan şəhid.

Taxtın uca göy üzündə,
Al qanın vətən düzündə,
Müqəddəssən el gözündə,
Bayrağı ucaldan şəhid.

Müqəddəs qisas

Göylərə çəkilən şəhid ruhuna
Tanrı sığal çəkir öz əllərilə.
Dünyanın göz açan al sabahına
Şəhid ətri dolur yurd yellərilə.

Yer üzü, göz üzü sarınmış cəngə,
Torpağın qarası bir lalə rəngə.
Nərələr təbildir bu gur ahəngə,
Savaş meydanı da cən çöllərilə...

Şəhid qanlarıyla yoğrulub torpaq,
Təzədən, təzədən doğulub torpaq.
Bir bax, məşəl olub, od olub torpaq,
Əbədi alovu qor dillərilə.

Bil, adı mərdlikdir hər başdaşının,
Qəddi dağ qəddidir, qəlb sirdaşının.
Gözlərdən süzülən o göz yaşının
Çeşməsi ürəkdir ah sellərilə.

Şəhidlər torpağı vətən eləmiş,
Bu çölü, bu dağı vətən eləmiş,
Şəhidlər bayrağı vətən eləmiş,
Gəlir səcdəsinə yurd ellərilə.

Oğullar zəfərlər çaldığı yerdə,
Müqəddəs bir qisas aldığı yerdə,
Şəhid məzarının olduğu yerdə
Vətən çiçək açıb tər güllərilə.

ZƏRXANIM ÜLVİ

Zəfər nəğməsi

Qartal gözlü Liderim atılanda savaşa,
Yenidən cilvələndi altun sinəli Şuşa.
Qarabağa yol açdı - əsarət yetdi başa,
Yurdundan perik düşən durnalar dönür geri.
Yaşa, Azərbaycanın yenilməyən Lideri!

Vətən sivrilib çıxdı yadların pəncəsindən,
Natəvan şövqə gəldi Xanın zənguləsindən.
Molla Pənah Vaqif, yaz, xalqın faciəsindən,
Qeyrət qalası oldu yurdumun şəhidləri...
Sən qol qoydun uğura, Azərbaycan Lideri!

44 - günlük döyüşdən ağlınla qalib çıxdın,
Zəfər bayraqlarını öpüb köksünə sıxdın.
Məkrli düşmənlərin xəyal evini yıxdın,
Dağıtdın ürəklərdən həyəcanı, kədəri,
Haqq, ədalət carçısı, Azərbaycan Lideri!

Sevin, Zərxanım, sevin, intizarın dağılsın,
Can yandıran nisgillər, gözlərindən sağılsın,
Yaz ruhun harayını - yadın bağrı yarılsın.
İlhamın məlhəm kimi sağaltsın dağlı yeri-
Xalqım sənə güvənir, Azərbaycan Lideri!
Yaşa, müstəqil xalqın yenilməyən Lideri!

Zərifənin göz nuru,
Şah Heydərin qüruru,
Sən qazandın uğuru,
Mənim şanlı Liderim!

Xalqına dayaq oldun,
Yolunda mayak oldun,
Üçrəngli bayraq oldun,
Mənim şanlı Liderim!

Deyilmiş

Yağı, bu şahmat sənlik deyilmiş,
Dişinə çəkmişdin yağlı torpağı.
Tikəsi çox sərtmiş, əmlik deyilmiş.
Günahsız canları odlara yaxdın,
Həris caynağınla qəlbimi sıxdın.
Haqqın güzgüsünə şeytantək baxdın,
Üzünə yaxdığın ənlik deyilmiş.

30 il səbr etdik, dözmürük daha,
Sülhə bac vermədin, batdın günaha.
Haqqı ismarladıq qadir Allaha-
Səpilən toxumlar dənlik deyilmiş...

Bu gün qisas günü haqq savaşıdır,
İncimiş ruhların can barışıdır...
Gözümdən süzülən sevinc yaşıdır,
Haqq sirli cəbrmiş, tənlik deyilmiş.

Ülviyəm torpağıma,
Qurulub tor bağrıma...
Bu torpaq öz canımdır-
Yad kimdir, torpaq uma!

İt kimi qapar

İtinin başın bağla, tutar qohum, qonşunu,
Atma bəla içinə ağrımayan başını...
Onunla dost olsan da, çomağı əldə bərk tut,
Yalını kəssən bir gün, sənə düşməndir bu it.
Zərxanım itə bənzər bəd olan çox adam var,
İstədiyin almasa səni it kimi qapar...

Buz aşı

Buz aşı bişirirəm, odda ərimir buzu,
Fikirlərim dolaşır, yerində dadı, duzu.
Bu aşın dadı nədən buzlaşır, daşa dönüb,
Əriməyə meyli yox, baxıram ocaq sönüb.
Əriməyən buz daşı donmuş ürəyə bənzər-
Heç vaxt bişirməz aşı, ərisə qabın əyər...
Zərxanım, qəlbin neyçin daş buzlara hədəfdir?
Bu buzu əritməkçin sevən ürək gərəkdir!

EYLƏYƏR

Bülbüldən umma vəfa, ey gül səni xar eyləyər,
Salaraq səs sehrinə, eşqə giriftar eyləyər,
Qönçənin bağrın dəlib qanın içər, uf da deməz,
Məlhəm etməz yaradan sirlərini car eyləyər.
Qonaraq güldən gülə xoş ətrindən nəşə alar,
İçərək şəbnəmini nə doyar, nə ar eyləyər.

Bu vəfasız yarımın bənzəri vardır bülbülə,
Hər gecə bir gözəlin şəhvətinə yar eyləyər.
Dolaşar bağça bağı, hökm sultanlıq eşqi ilə,
Təzə-tər qönçələri qoxlayıb nübar eyləyər.
Göz görüb can inləyər, gör Zərxanım nələr çəkir,
Susmasa öz təbini öz ruhuna dar eyləyər.

Məmməd ƏBİLOĞLU

Neftçala rayonu
Yuxarı Qaramanlı kəndi

XOCALI

Bu nə tufan, bu nə qandı,
Nə idi suçum, Xocalı!
Dinim, imanım da yandı,
Yandı içim, ay Xocalı!

Külək qara yelə döndü,
Qan töküldü, selə döndü,
Kənd-kəsəyim külə döndü,
Külüm göylərə sovruldu-
Qovruldu içim, Xocalı!

Örüşlərdə malım qaldı,
Pətəklərdə balım qaldı,
Toxunmamış xalım qaldı,
Qaldı küfüm, ay Xocalı!

Yandı dilim, ay Xocalı!

Cığırlarda izim qaldı,
Deyilməmiş sözüm qaldı,
Neçə oğlum, qızım qaldı,
Qaldı gözüm, ay Xocalı,
Necə dözüm, ay Xocalı!

Düşmən döndü, ilan oldu,
Elim –obam talan oldu,
Bu dərd mənə qalan oldu,
Solan gülüm, ay Xocalı!
Necə gülüm, ay Xocalı!

Bu dərd sinələr dağladı,
Analar qara bağladı,
Torpağım, daşım ağladı,
Ağladı nənəm, Xocalı,
Alışdı sinəm, Xocalı!

Gülüm-çiçəyim solmasın,
Sənsiz bir günüm olmasın,
Qisas sonraya qalmasın,
Qalmasın aman, Xocalı!
Gəlsin o zaman, Xocalı!

Bu bir qaradır, silmərəm,
Vətən ağlasa gülmərəm...
Qisas almasam ölmərəm,
Ölmərəm, inan, Xocalı!
Alışıb-yanan Xocalı!

Yoxdu kimsənin günahı,
Bu qan titrətdi dərgahı,
Allah götürməz bu ahı,
Vallah götürməz bu ahı,
Yerdə qalmaz qan, Xocalı!
Gəl, buna inan, Xocalı!

Bir gün gələr qisas alan,
Döyüşər neçə qəhrəman.
Eşit məni, ey Yaradan,
Qələbəni təcil eylə,
Düşmənimi xəcil eylə,
Biz deyək-gülək, Xocalı!
Sevinsin ürək, Xocalı!

Gəldi şükür qisas alan,
Döyüşdü neçə qəhrəman,
Alındı Şuşa, Zəngilan,
Qarabağdır AZƏRBAYCAN!
Deyib Komandan, Xocalı!
Elə o andan, XOCALI!

QƏZƏL

Dərdə düşsə dəli könlüm, aləm məni cünun sansın,
Arzularla yanan qəlbim birdəfəlik alovlansın.

Xudaya, de, neyləmişəm, bəxt, səadət məndən qaçır,
Uzaqlaşıb gedən o bəxt barı gendən məni ansın.

Qəlbimdə bir ümid vardır, taleyimə yalvarıram,
Özü bir şəm olan gözəl, məni pərvanətək sansın.

İlhamdakı zərrəciyim meh titrədən közə bənzər,
Söndürməyin, alovlansa, köksüm başı qoyun yansın.

Sənin şeirlərin, Məmməd, coşqun sulu çaya bənzər,

Axmamaqçün o boş yerə, gərəkdir ki, cilovlansın.

İMAMVERDİ ÖLMƏZ (ZEYNALOV)

Bahar yağışı

Yağar üstümüzə bahar yağışı,
O selin, tufanın bəlkə özüdür.
Açan novruzgülü bir körpə yaşı,
Çiçəklər daş olan bulaq sözüdür.

Buludlar görüşür, çəkilmir duman,
Düşərək yağışa yuyunur çəmən.
Şanapipiyə də düşübdür imkan-
Qərib durnalardır bu elə gələn.

Bir ana laylası, suların səsi,
Sona bülbüllər də nəğmələr yazır.
Oxşayır torpağın bahar nəfəsi,
Xallı kəpənəklər yolların azır...

Bahar görüşündə gəlinlər, qızlar,
Onlar halay çəkir, mahnı oxuyur.
Eşqini gülə-çiçəyə yazanlar-
Şehli bənövşədən xalı toxuyur.

Nişanlı qıza da xonça gəlibdir,
Ana qarşılayır, xələt bağlayır.
Yazın ilk nəğməsi yerə enibdir,
Sular duman olub, coşub çağlayır.

Baharın gəlişi bir nur, bir çıraq,
Deyirəm cahanda küslü qalmasın.
Bürünüb yaşıla sehirli budaq,
Çiçəklər saralıb bir də solmasın.

Ölməz, Yer üzünə gəlibdir bahar,
Dünyanın hər yeri gül-çiçək olsun.
Qərq olsun Novruza ümid, arzular,
İnsanı yaşadan saf ürək olsun!

Gələ bilsəydim

Mən gələ bilsəydim dünyaya bir də,
Torpaq bədənimlə güllər əkərdim.
Min əlac tapardım qüssəyə, dərdə,
Günəşin əksini yerə çəkərdim.

Qayıda bilsəydim elə, obaya,
Xəzəri, Kür çayın yorğan seçərdim.
Arazım həsrətli, qəmli bir dünya,
Təbrizi dolanıb, yollar keçərdim.

Zühr edib aləmdə, dönüb Muğana,
O keçən illəri burda başlardım.
Səyahətə çıxıb külli cahanı,
Gözəl Qarabağda min il yaşardım.

Mən dönə bilsəydim Azərbaycana,
Qibləyə, Məkkəyə səcdə edərdim.
Minnətdar olardım qədim cahana,
Ümidə, arzuma burda yetərdim.

Yaylıq əfsanəsi.

Yaylıq əllərindən uçdu durnatək,
Ləpələr baş çəkir o daş sahilə.
İlk sevgi eşqilə alışır ürək,
O uca səmalara uçdun durnatək..

Sənsiz gecələrin yuxusu gəlməz,
Bizi ayrı salan bu yollar oldu.
O uçan yaylığın geriyə dönməz,
Əkdiyin çiçəklər saraldı, soldu.

Köç edən yaylığın düşübdür yaza.
Bənzəyir bahara hər yaşıl yarpaq.
Xonça gətiriblər nişanlı qıza.
Dönüb qərənfilə bu qara torpaq.

Gülən dodaqların soldu bir səhər,
O güllü yaylıqla çənən bağlandı.
Yaşaya bilmədin bir yaylıq qədər,
Qərib sonam üçün ellər ağladı.

ƏDƏBİ ÜFÜQLƏR... DÜŞÜNCƏ TƏRZİMİZ... DƏYƏRLƏRİMİZİ QORUYAQ...

"Elçilik"

-Eee, harda qaldıye buu? Bu lap ağ olduya...Bu qədər də gözləmək olar?

Baxımsız, suvağı tökülmüş kənd dayanacağının qarşısında dayanan 60 yaşlarında bir kişi tez-tez deyinir, əsəbi halda təsbehini fırladır, arabir vargəl edirdi. 40-45 yaşlarında görünüşündən müəllimi xatırladan ər və arvad da artıq yorulmuş, oflanmağa başlamışdılar. Qadının topuqlu ayaqqabıları, görünür, ona bir qədər əziyyət verirdi. Buna görə də ərinə sığınaraq onun qolundan bərk-bərk yapışmış, gözünü uzanan kənd yoluna dikərək:

-Yenə gecikir... Evə vaxtında çata bilməyəcəyik... Görünür, bu gün də çatmayacağıq, - deyə gileylənir, hərdən həsrət dolu nəzərini dayancaqdakı oturacağa zilləyirdi. Onlar həm ayaq üstə durmaqdan, həm də dayanacağın 3 nəfərlik oturacağını mənimsəmiş 50-55 yaşlarındakı qadının danışığından, adamın beyninə iynə kimi batan cır və gur səsindən çox yorulmuşdular. Onu tanımasalar, qətiyyən həmsöhbət olmasalar da adının Qızbəst olduğunu, kiçik oğluna qız axtardığını, artıq 5 il keçməsinə baxmayaraq böyük gəlini ilə uzun müddətdir ki, cehiz üstündə davalı olduğundan xəbərdar idilər. Hətta 2 azyaşlı nəvəsinə rəğmən hələ də söz-söhbətlərinin qaynar şəkildə davam etməsi, qudasına belə bu barədə "son ultimatum" verməsi, bu azmış kimi arvadının tərəfini saxladığı üçün oğlu və bu məsələdə zidləşdiyi üçün həyat yoldaşı ilə aralarının soyuq olduğu haqqında məlumatlı idilər. Bütün bu məlumatları isə avtobus gözlədikləri 1 saat ərzində onun çox hündürdən, telefonla danışığı əsnasında qeyri-ixtiyari olaraq əldə etmişdilər. Qadın heç kimə məhəl qoymadan ailə məsələləri və münasibətlərini çox rahatlıqla qonşusu ilə elə oradaca müzakirə edirdi. Artıq onun gündəlik həyat tərzini, nəyi xoşlayıb xoşlamadığını təyin etmək heç də çətin deyildi.

Bu azmış kimi qadın özü əyləşsə də, xeyli müddətdir ayaq üstə dayananları saymır, iri zənbillərini skamyada hər iki tərəfinə elə yerləşdirmişdi ki, kimsənin otura bilməsi qətiyyən mümkün deyildi. Qadın arabir ona tuşlanan narazı baxışlara nəinki etinasız yanaşır, hətta telefon söhbətini davam etdirməklə bərabər, eyhamlı və sərt baxışlarla onlara qarşılıq verməyi də unutmurdu. O, tez-tez yerdə ayağının arasında saxladığı zənbili eşələyir, qızğın telefon söhbətinə tum "keyfi" də qatırdı.

Bu zaman gənc bir oğlan ona yaxınlaşır. Utancaq və qısıq səslə:

-Ay mama, bəsdir də.., nə qədər danışırsan, yorulmadın? Səsin kəndin ta o başından əks-səda verir. Ayıbdı, Vallah, camaat sənə baxır, - deyə anasına ucadan danışdığına və yeri zibillədiyinə görə iradını bildirir. Anası isə oğlunun iradına məhəl qoymadan "nə oldu, de görüm alındı?"- deyə amiranə şəkildə soruşur. Oğlu isə aciz durumda "alınmadı..., neynəyim..?"- deyərək başını bulayır. Qadın əsəbləşir və deyinməyə başlayır.

-Sən necə uşaqsan? Yarıtmazsan ki yarıtmaz. Axır başıma qalacaqsan...

Anasını sakitləşdirməyə çalışsa da buna müvəffəq olmayan oğlan onun çımxırmasından və deyinməsindən utanıb oradan uzaqlaşır və dayanacaqdan bir qədər kənarda dayanır.

Bu zaman orta yaşlarında bir qadın gənc qızı ilə bərabər dayanacağa gəlir. Qadına gülümsünərək salam verir, nəzəri ilə oturmağa yer axtarır, lakin mənasız olduğunu başa düşüb bir qədər kənara çəkilir. Qadın telefonu ilə məşğul olduğundan, əvvəlcə, ona da məhəl qoymur, qızı gördükdə isə böyük bir xəzinə tapmış kimi gözləri parlayır. Bir göz qırpımında telefonu söndürüb tez çantasına atır. Ovcundakı tumu kənara tullayaraq ayağa qalxır:

-Az Solmaz, sənsən?.. Buyyy... Bu nədi az, adam-zad tanımırsan?

Qadının qəfil hərəkətindən ana və qız diksinir və çaşbaş halda ona baxırlar. Qadın isə dil boğaza qoymadan iti danışığı ilə davam edir.

-Az, tanımadın, booyyy. Mənəm də, Qızbəst. Nətərsən, necəsən, kənd-kəsək necədi? Gəl səni bir "maççç" eləyim. Haçandı görüşmürük.

Gözünü qızdan ayırmadan can dərdi qadını qucaqlayır, qızı isə həsrətli adamlar kimi bərk-bərk bağrına basır.

Solmaz və qızı qadının bu hərəkətinə təəccüblənsə də deyir:

- Tanıdım.., tanıdım, niyə tanımadım.

Qızbəst bayaqdan əzizləyərək gözündən ayırmadığı iri zənbillərini oturacaqdan tez götürərək yerə qoyur, sanki ona məxsusmuş kimi olan yeri ana və gənc qıza təqdim edir:

- Az gəl.., gəl bura. Otur, otur. Çoxdandı səni görmürəm.

Müraciəti Solmaza etsə də, qızın qolundan dartıb tez yanında otuzdurur. Anasına isə:

- Otur, otur, niyə ayaq üstə dayanmısan?

Solmaz da əyləşir. Qız onların arasında sıxışmış kimi qalır.

-Az, hardan belə?

Solmaz elə ağzını doldurub cavab vermək istəyirdi ki:

-Bacımgil...

Qızbəst cavabı gözləmədən:

-Qızındı?

-Həəə, qızımdı.

Qızbəst qaş-gözünü oynadaraq:

-Verməmisən hələ?

Solmaz nazla gözünü süzdürüb, dilini sürüyərək:

-Az yoxaa, nə verməsi, hələ nə yaşı var ki..?

Bayaqdan az qala birnəfəsə danışan Qızbəst sevindiyindən bilmədiki neynəsin. Dərindən nəfəs aldı. Yerindən qalxıb oturdu və qıza bir qədər də yaxınlaşdı. Onsuzda anası ilə qadının arasında sıxışmış qızın yeri daha da darlaşdı. Qızbəst yerdəki zənbilini qurdaladı, ordan bir ovuc tum çıxardıb yarısını qıza, yarısını da anasının ovcuna tökdü. Tumu çırtlaya-çırtlaya həyacanla sözünə davam etdi:

-Qəşəngdi, elə bil maraldı, ceyrandı. Su sonasıdı, maaşallah.

Qız və anası bu sözlərdən xoşlandılar, hətta çiyinlərini oynadıb bir qədər nazlandılarda.

-Solmaz, deyəsən, qızın atası tərəfə oxşayıraa...

Solmaz narazı şəkildə, ani hərəkətlə əlini Qısbəstin qoluna toxundurdu və gözünü süzdürərək:

-Yoxa, nə danışırsan? Yadından çıxıb, eynən cavanlığımdıye... Elə bil bir almayıq.

-Az hə, hə.., düz deyirsən, Vallah, elə sən deyəndi. Almadı... Hə almadı, çürüyü də olur, safı da...

Qızbəst ovcundakı tumu ətəyinə tökərək əlini qızın saçına toxundurur, oxşayırmış kimi yoxlayır.

-Yaxşıdı, çox yaxşıdı.

Qız və ananın təəcüblü baxışlarını görürək davam edir:

-Materialın deyirəme, eynən mənimkinə oxşayır.

Solmazla qızı Qızbəstin pırtlaşıq saçına ani nəzər salıb təəccüblə bir-birlərinə baxışırlar. Qızbəst bunu sezir:

-Az, şampunumu dəyişmişəmee, onnan bu günə düşüb.

Bu dəfə qızın əlini sığallayaraq:

-Bax-bax-bax, necə səliqəlidi... Barmaqları da uzundu. İş görəndi? Əlindən iş-güc gəlir? Bacarığı var?

Qız anası elə bil himə bənd imiş, başlayır, nə başlayır.

-Bə nə... Ay qız, onun bir işi-gücü var, bir səliqə-səhmanı var, gəl görəsən. Az kənddə hər kəs bundan danışır. Əlinin bir tamı var, bir tamı var, bəh-bəh-bəh... Bişirdiyi yeməkdən doymaq olmur. Yeyən deyir bir də ver. Az, təzədən bişirilir...

Bu zaman qız anasının danışığının əslini düşünürək dodaqaltı gülümsünür, anasının onun işini heç bəyənmədiyinə görə hər dəfə deyinməsini, bişirdiyi yeməyin gah düzlü, gah şit, gah tamsız olduğundan yeyilmədiyini, buna görə də hər dəfəsində özünün yenidən bişirdiyini yadına salır. Qız anasının qoluna dəfələrlə toxunsa da qadın hələ də onu yerli-yersiz tərifləməyə davam edirdi.

-Az, sözün düzü, nə deyim.., qızım deyə demirəm, onu bəyənməyən yoxdu. Bilirsən nə qədər elçisi var..?

Qızbəst axtardığını tapmışdı. Yox, tapmamışdı, özü gəlib qucağına düşmüşdü.

-Nə danışırsan ay qız? Eynən oğlum kimidiye. Oğlum bilirsən necə ev quran, ev saxlayandı? Çox bacarıqlı, çox diribaşdı, pul qazanan oğlandıye... Səhərdən axşamacan evdə tapmazsan. Ancaq işində gücündə. Gecə keçəndən sonra gəlir, Vallah... Oğul deyile, yıxılı evin dirəyidi. Şümal kimi. Bax-bax-bax, odur ey özü də orda dayanıb. Qədd-qamətli, boy-buxunlu. Anası qurban olsun ona, buşşş...

Bütün bunları kənardan izləyən və eşidən oğlan anasının sözlərinin əslini xəyalından keçirir. Gün-günorta durmağını, anasından xərclik alıb çayxanada dostları ilə gün keçirtməyini, işsiz-gücsüz, gününü ancaq telefonda keçirtməyini yadına salaraq utanır. Əlacı olsaydı görünməz olardı.

İki qadın danışır, sanki bir-birinin bəhsinə övladlarını tərifləyirlər. İkisinin arasında sıxışıb qalmış qız çaşqın və təəccüb içində gah qadına, gah da anasına baxır. Ara-bir müdaxilə etmək istəyəndə isə hər ikisi ona imkan vermir. Dayacaqda duran və hadisəyə şahid olanlar isə qadınlara təccüb və təəssüflə baxır, ara-bir qımışır, narazı halda başlarını bulasalar da, söhbətlərinə qarışmırdılar.

-Az, Solmaz, səni Allah yetirdi. Qızın lap mən deyəndi. Çoxdandır beləsini arzulayırdım. Bax elə buradaca deyirəm.., vso qız mənimdi, qurtardı. Üzünü oğluna tərəf çevirərək "Şükür axtardığımı tapdım"-deyə işarə ilə ona eyham etdi.

Ana elə bil yuxudaydı, ayıldı. Qızbəstin sözündən karıxdı.

-Başa düşmədim.., nə? Nə qurtardı?

Qızbəst ovcundakı tumu qızın əlinə tökərək, pulqabısından kağız parçası çıxartdı, Solmazın əlinə basdı.

-Al, itirmə, bu mənim vaççap nömrəmdi. Həmişə burda hazır saxlayıram. Bax, deyirəm, yazacam, mütləq yazacam. Nə vaxt gələcəyimizi bildirəcəm. Hazırlıqlı ol.

Solmazın bir qədər sifəti aydınlanır.

- Hə? Elçi.., elçi gələcəksiz?

-Yox ay qız. Bekarsane deyəsən, mənim vaxtım hayandaydı. Elçilik qalıb indi? Elədim də.

-Necə yəni? Harda? Nə vaxt?

-Necə yəni nə vaxt, harda? Elə indi, burda.

Bu zaman oğlan sevincək halda qışqıraraq:

-Gəlir, gəlir! Avtobus gəlir!

Ana və qızdan başqa hamı əl-ayağa düşür. Qızbəst zənbillərinin hayına qalır. Tez onları dartışdıraraq, bir qədər irəli sürüyür. Sonra Solmaza yaxınlaşır, əlini onun çiyninə vuraraq:

-Mənimki gəldi. Vallah sənlə burda oturub doyunca söhbət edərdim. Amma heyf ki gecikirəm. Bu gün axı serialın vaxtıdı, başlayana qədər işlərimi bitirməliyəm. Amma arxayın ol, sənə mütləq yazacam. Telefon əlində olsun. "Vatçapın" açıq olsun.

Bu zaman avtobus çatır. Qadın oğlu ilə bərabər zənbillərini də götürüb tələsik avtobusa minməyə hazırlaşırlar.

Solmaz məyus halda onun dalınca baxa-baxa:

-Qızbəs.., ay Qızbəs... Atasına nə deyəcəm? Bəs elçilik? Şirinlik?

Qadın zənbillərini avtobusun pilləkanına qoyub, oğluna tapşıraraq, tələsik dala qayıdır.

-Sevindiyimdən az qala yadımnan çıxmışdıya... Ovcunu aç görüm!-deyə amiranə şəkildə bildirdi.

Solmaz qeyri-ixtiyari iki ovcunu da açaraq təəccüblə onun hərəkətlərini izləyir. Qızbəst əl çantasından bir qədər konfet çıxardıb onun ovcuna tökərək, kövrək səslə:

-Sol-maz, ay qız, ölmə-dik bu günü də gördük. Qohum oluruğee.., qohum...

Konfetlərə işarə edərək:

-Qonşuları yaddan çıxartmaya.., çox vermə, hərəsinə tək-tək bəsdi.

Bayaqdan şok vəziyyətdə dayanan qıza tərəf çevrilərək:

-Allah mübarək eləsin, qızım-deyərək, alnından öpür və avtobusa tərəf qaçır. Maşına minib əyləşir. Avtobus gethagetdə pəncərəsindən başını çıxardaraq:

-Yazacam... Telefonda olarsanaa.. Başla...

Solmaz baş hərəkəti ilə "nəyə?"-deyə soruşur.

-Toy hazırlığına...

Solmaz bir yavaş-yavaş uzaqlaşan avtobusun ardınca, bir ovcundakı konfetlərə, bir də qızına baxaraq:

-Mən indi atana, qohum-əqrabaya nə deyəcəm. Necə deyəcəm ki, qıza "astanovkada" elçi düşdü... "Hə"sini də elə oradaca verdim.

Qız konfetdən birini alına alıb rişxəndlə anasına:

-Bunu bayaqdan məni yalandan tərifləyə-tərifləyə başından eləyəndə düşünəydin.

Nəzakət QULUQIZI
Yazıçı-publisist

POEZİYA ------ RUHUN QİDASI

ATAMALI TALIBOĞLU

NEFTÇALA RAYONU,
XƏZƏR KƏNDİ

Bahar gəlir

Deyəsən yığışıb ilkin soyuqlar,
Buludlar dağlarda tər tökür indi.
Şimşəklər səmada qələm olublar,
Yazın gəlişinə qol çəkir indi.

Düzlərdə lalədən görünmür bir iz,
Öz yaşıl donunu geyməyib meşə.
Çöllərdə çıxmayıb yasəmən, nərgiz,
Ancaq kol altında qalxıb bənövşə.

Yer var ora hələ düşməyib bahar,
Orda yaşayanlar dincəlib yatır.
Yem vaxtı, yem fürsəti çəkən marallar
Bir yerdə dayanmır, addımlar atır.

Yamaclar, ətəklər hələ soyuqdur,
Çobanlar dağlarda ocaq çatırlar.
Axan şəlalələr cana doyubdur,
Özünü qayadan sanki atarlar.

Getdikcə dəyişir yazın nəfəsi
Çəmənlər soyuqdur, çöllər soyuqdur.
Elə bil güllərin pünhan çöhrəsi,
Gələn ilk baharda qovuşacaqdır.

Oxucun olum
(Xalq şairi Məmməd Arazın xatirəsinə)

Bu gün kitabını oxudum, şair,
Sevincdən az qala Araz tək coşam,
Hələ gör üstəlik qəlbim nə deyir:
"Belə bir nəğmə heç oxumamışam".

Söylədim: Şair, çox niyə çəkim qəm,
Çox da yaxşı şeir yazan azalıb.
Çoxları əlinə alsa da qələm -
Ancaq sənintək söz gəzən azalıb.

Deyirəm bəlkə də sözlü bir neysən,
Nə olar, Arazı danışdır bir az.
Bəlkə od gəzdirən Prometeysən-
Qəlbləri soyuğa alışdır bir az.

Sevincə döndərdin hər bir fikrimi,
Səni oxumaqdan doya bilmirəm.
Gündə oxuduğum hər bir şerini
Özümdən kənara qoya bilmirəm.

Belə şeir yazmaq olub çox çətin,
Hər yetən bu işə alışa bilməz.
Şeirə o qədər var məhəbbətim,
Bir kimsə sənlə yarışa bilməz.

Ustadlar ustası sayılırsan sən,
Çox şair köçübdür artıq qəlbinə.
Qələm götürməyə utanıram mən-
Bəlkə buna görə çox vaxt əlimə.

Hər sözün söz sehri öyrədir mənə,
Bu könül varına hər vaxt vuruldum.
Daha yazdıqlarım bəs edir mənə-
İndisə izn ver, oxucun olum.

İstədim şeir yazım

Gözümün önündə durdu bir şeir
Onu yazmaq üçün gecə yatmadım.
Hər dərdimi unutdurdu bu şeir,
Ancaq qəlbim arzusuna çatmadı.

Ağ vərəqdə təzə sözlər göründü,
Təbiətdən bəhs edirdi bu yazı.
Misraları bir çox yerə bölündü,
Qaldım neçə yaxşı sözə tamarzı.

Bəzən çıxdım mən gecənin seyrinə,
Fikirlərim bulaq kimi duruldu.
Gördüm ağac şeh geyinib əyninə-
Gördüklərim birdən-birə yox oldu.

Çöllər, güllər iz qoymuşdu yanmağa,
Çox çiçəyin dəyişmişdi çöhrəsi.
Həm də gördüm rəng çiləndi zanbağa,
Açılantək cilvələndi şöləsi.

Yasəmənin görkəminə mat qaldım,
Biləm gərək qərənfilin nazını.
Şadlığımdan, sevincimdən ucaldım,
Unutmuşdum yarımçılıq yazımı.

Güldü səhər şəfəqləri gözümdə,
Hər nə gördüm təbiətdə oyandı.
Göydə şəfəq saçan günəş özü də,
Gözəlliyin qarşısında dayandı.

Meylim düşdü yenə mənim qələmə,
Ancaq bilmədim ki, bayırda yazdı.
Bu səhəri vəsf etməyə sən demə,
Günəş imiş təzə şeir yazırdı.

Tutmuşam

Dağlar olub mənə ilham verəni
İlhamımın ətəyindən tutmuşam.
Burda bitən gül-çiçəyin ətrini,
Beçə balın pətəyindən tutmuşam.

Elim verdi mənasını nəğməmin,
Günəş sürtdü boyasını nəğməmin,
Ancaq halal mayasını nəğməmin
Bu yurdumun küləyindən tutmuşam.

Gecə yarı nuru artar ulduzun,
Yatağında gül bitirər lay buzu.
Ürəyimdə yeri vardı bir qızın
Baxışıyla şimşəyindən tutmuşam.

Qartalıyam bu zirvənin, bu dağın,
Nəğməsindən doymamışam bulağın.
Vurğunuyam doğma ana torpağın
Ürəyimlə ürəyindən tutmuşam.

Şirin xatirə

O doğma institut- mehriban ana,
Məni oğul kimi basıb bağrına.
Bağlıdır ömrümün beş ili ona
Hər vaxtım, hər çağım şirin xatirə.

Çox kəsdi yolumu külək, qar, boran,
Yüksəyə uçmağa can atdı hər an.
Qəlbimi quş kimi qanadlandıran-
Gündə beş almağım şirin xatirə.

Atlanıb düşərdi fərəhdən ürək
Hamıdan cəld idim, hamıdan zirək.
Ayrılıq düşəndə yaz buludutək
Dolub boşalmağım şirin xatirə.

Nə vaxt eşidəndə xoş səsinizi
Köksümdə kükrəyir sevinc dənizi
Tələbə oluram görəndə sizi
Tələbə - olmağım şirin xatirə.

Dumanlar

Gah orda, gah burda məskən salarlar,
Kədərsiz, qüssəsiz yaşar dumanlar.
Haraya düşsələr, "ağa" olurlar,
Ancaq meh əsəndə çaşar dumanlar.

Getdiyim yollarda çox bitib duman,
Qalmayıb yerində əngəl olubdur.
Çox vaxt da özünü gizlədir duman
Düşmənə, yağıya səngər olubdur.

Dönübdür nəğməyə, dönübdür şeirə,
Dediyim sözlərim dumanlanıbdır.
Bəzən elə iş gəlib çatıb o yerə,
Görmürəm, gözlərim dumanlanıbdır.

Demə dumanlar da verərmiş qərar,
Çöllərin, düzlərin çoxu dumanlı.
O qədər çoxalıb, artıb ki, onlar-
Olubdur hər gecə yuxum dumanlı.

İnsafsız olmayaq gəlin çox belə,
Deməyək yad olub bizə dumanlar.
Çox zaman bizimlə verib əl-ələ,
İşləyir, girişir bəhsə dumanlar.

FƏRHAD ƏZİZBƏYLİ



Neftçala şəhəri

Qayıdarıq

Nə olsun ki, bu dünyamız
gəlimlisə, gedimlisə?
Gələn qalmaz, gedən gəlməz,
son ucu da ölümlüsə...
Cisim kimi getsək belə,
bir gün ruhtək qayıdarıq.
Bizi sevən yar - yoldaşın
ürəyində qövr eyləyən,
qopan ahtək qayıdarıq.
Dolanarıq göy üzündə
bəyaz, mavi bulud kimi.
Yağış olub qayıdarıq,
çiçək olub açılarıq
ilk baharda, son baharda.
Təpələrə, dərələrə
naxış olub qayıdarıq.
Neçə ata ocağında
doğularıq dönə - dönə.
Röya kimi əzizlərin
yuxusunda qayıdarıq.
Ətir kimi çiçəklərin
qoxusunda qayıdarıq.
İnanmayın kimsə sizə
gedən bir gün gəlməz desə.
Nə olsun ki, bu dünyamız
gəlimlisə, gedimlisə?!
Kəpənəyin qanadında
meh olarıq qayıdarıq,
Gözəllərin yanağında
şeh olarıq qayıdarıq!..

Dəli könül dəli qaldı

Şükür eylə qalanlara,
Olacağa, olanlara.
Çox qəmlənmə solanlara,
Hansı bağın gülü qaldı?
*
Dağları da uçan gördük,
Hər kəs qonaq, köçən gördük.
Od sönməyə,.. haçan gördük?!
Ocaq söndü, külü qaldı.
*
Könül kövrək- sarı simli,
Göz gah dalğın, gah da nəmli.
Ömür bitir, ancaq qəmli...
Ayı qalır, ili qalır...
*
Xatirələr nağıllandı,
Duyğularım sığallandı.
Ruh xəstəsi ağıllandı,
Dəli könül dəli qaldı...

Köçək burdan

Unudaq olub keçəni,
O dalanı, bu küçəni.
Geyinək zülmət gecəni
Kimsə görməz, keçək burdan.

Küsməyibsə bəxtin hələ,
Çevrilməyib təxtin hələ,
Möhlət verib vaxtın hələ,
Zaman varkən qaçaq burdan.

Uyma sirli baxışlara,
Soyuq, o yad ağuşlara.
Dönüb köçəri quşlara,
Qanadlanaq uçaq burdan.

Ürəkdi döyən sinəni,
Ruhun yox cana güvəni
Ataq bu evi, binəni,
Tək can, tək ruh köçək burdan!

Bizdən qalası

Sananılmaz bu dünyanın yaşı çox,
Min yol heyif, ariflərdən naşı çox!
Bu dağların çiçəyindən daşı çox,
Çiçək solar, daşdı bizdən qalası.

Ürək dolu arzularla, sinə dar,
Gedən dönməz, ha yaxa cır, sinə yar!
Bu dünyanın yazı, yayı, qışı var,
Bahar keçər, qışdı bizdən qalası.

Ürək ovut əməlinlə, sözünlə,
Tək qalarsan, yoxsa özün özünlə.
Çox öyünmə, gəl qaşınla, gözünlə,
Göz tutular, yaşdı bizdən qalası.

Dəniz coşub, boğulacaq bu ada!
Görən yenə doğulacaq bu ada?
Ləkə vurma nə namusa, nə ada,
Uca addır, işdir bizdən qalası.

Vətəndən keçə bilmərəm

Qürbət eldə binə salsam,
Yollar ayrıcında qalsam,
Sonu uçurum da olsa,
Yolumu seçə bilərəm!

Əcəl dolansa başımda,
Yağılar dursa qarşımda,
Ölüm - qalım savaşında,
Ölümü seçə bilərəm!

Çəndən, dumandan keçərəm,
Dağdan, ormandan keçərəm,
Bu əziz candan keçərəm,
Vətəndən keçə bilmərəm!

GÜNDOĞAR

"NEFTÇALA - SALYAN FOLKLOR MÜHİTİ"

Əziz oxucular!

Təqdim etdiyimiz kitab həmyerlimiz Aynurə Sadıqqızının 2018-ci ildə çap edilən **"Neftçala-Salyan folklor mühiti"** kitabıdır.

Aynurə Sadıq qızı Səfərova 25 iyul 1976-cı ildə Neftçala rayonunun Xol Qarabucaq kəndində anadan olub. Orta təhsilini kənd məktəbində başa vuraraq 1994 -1998-ci illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır. 2002-ci ildən AMEA Folklor institutunda əmək fəaliyyətinə başlamışdır. 2016-cı ildə "Neftçala - Salyan folklor mühiti" mövzusunda dissertasiya işini müdafiə etmişdir.

Müəllif hal-hazırda AMEA-nın Folklor institutunun aparıcı elmi işçisidir.

Aynurə Sadıq qızının "Neftçala – Salyan folklor mühiti" kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyev, rəyçi filologiya üzrə elmlər doktoru Əfzələddin Əsgər olub. Kitab Neftçala – Salyan ərazilərində aparılan elmi araşdırmanın məhsuludur. Kitabda verilən məlumatlar xalq yaddaşından süzülən, xalqımızın mənəvi aləminin aynası kimi yaşayan folklor nümunələri düşüncələrimizdə yeni səhifələr açır, aydınlıq gətirir.

Kitaba ön söz yazan Əməkdar elm xadimi Kamran Əliyevin təbirincə desək: ***"Müəllif bu regionla bağlı mövcud folklor nümunələrini, onlar barədə yazılan tədqiqatları nəzərə almaqla özü də xeyli yeni folklor nümunələri toplamış və geniş araşdırma aparmışdır. Nəticədə bölgənin tarixi-coğrafi, etnoqrafik xüsusiyyətlərini aşkarlamış, folklor söyləyicilərinin mətn ifasını lentə almış, bu ərazidə yaşayan aşıqların fəaliyyətini dəyərləndirmiş, folklor nümunələrinin həm özəlliklərini, həm də ümumi xüsusiyyətlərini üzə çıxarmışdır. Bölgənin tarixi - coğrafi və etnoqrafik xüsusiyyətlərini təhlil edərkən bölgə coğrafiyasının folklorda təzahürünə xüsusi önəm vermiş, xüsusilə Kür çayının folklor örnəklərində yer alması maraqla izlənilmişdir. Eyni qaydada əhalinin məşğuliyyətinin folklorda təzahürü də araşdırılmışdır".***

Aynurə Sadıqqızının araşdırmasında əhəmiyyətli məqamlardan biri də mifoloji mətnlərin əhəmiyyətinin qeyd edilməsi, həmçinin hansı tip mətnin yaşca fərqli söyləyicilər tərəfindən deyilməsinə münasibət bildirilməsi, araşdırılmasıdır. Kitabda Novruz bayramından bəhs edilən məqamlarda bayramın məhz təbiət cəmiyyət vəhdəti önə gətirilir, müqəddəsliyi qeyd edilir.

Aynurə Sadıqqızı Novruz bayramı ilə əlaqədar qeyd edir ki, "Azərbaycanda elə bir region yoxdur ki, orada Novruz bayramı təntənə ilə qarşılanmasın. Bayrama hazırlıq bir ay əvvəldən – el arasında "Boz ay" kimi tanınan zamandan başlayır. Ev-eşik, həyət-baca təmizlənir, palaz-xalça havaya verilir, evlər, hasarlar, bağça-bağlar, ağacların gövdələri əhənglə ağardılır, hər tərəfdə təmizlik işləri görülür. Bayramdan əvvəlki dörd çərşənbə axşamı- İlaxır çərşənbələr qeyd olunur: su, od, yel, torpaq çərşənbələri. Hər çərşənbə axşamı hamı bir yerə yığışır, tonqal qalayır, lopa düzəldirlər. Uşaqlar lopanı daha çox hündürlüyə atmaq üçün öz aralarında yarışırlar..."

Xalq həyatının əhatəli təsvir olunduğu kitabda aşıq sənəti haqqında da maraqlı faktlar qeyd olunmuş, bölgənin məşhur aşıqları XVIII əsrdə yaşamış salyanlı Aşıq Vəlicandan, Aşıq Qurbanxan Sadıqov, Aşıq Bəylər Qədirov, Aşıq Pənah Pənahov, Aşıq Əvəz haqqında el dilindən yaddaqalan məlumatlar verilmişdir.

"Gəlsin məclisimə yaxınım, yadım,
Saz götürsün oğlum, nəvəm, övladım.
Qurbanam, el olmuş, mənim ustadım,
Onuncün adımtək elə qurbanam".
(Aşıq Qurbanxan)

Həm şairdi, həm aşıqdı,
Toy-düyünə yaraşıqdı.
Tükənməyən bir işıqdı,
Könüllərdə nurdu Pənah.
(Aşıq Əvəz (Bankəli))

Aynurə Sadıqqızının "Neftçala – Salyan folklor mühiti" kitabı regionun folklor nümunələrinə həsr olunmuş dəyərli tədqiqat nümunəsi kimi inanırıq ki, oxucularımızın da marağına səbəb olacaqdır. Kitab istər tələbələr, istərsə də geniş oxucu kütləsi üçün maraqlı məlumat mənbəyidir.

Kitabın PDF variantı ilə aşağıdakı linkdən tanış ola bilərsiniz.

https://folklor.az/uploads/research/files/Aynure-Sadiqqizi1694072060.pdf

Nicat AĞAYEV

ELAN

Bildirilir ki, Neftçala rayon Xol Qarabucaq kənd sakini Qasımov Gülbala Musa oğluna verilmiş A - 456794 nömrəli Müharibə Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

ELİMİZƏ BAHAR GƏLİR...

NOVRUZ BAYRAMINDA YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

Yurdumuza bahar gəlir – həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımız həmişə olduğu kimi milli adət-ənənələrimizə uyğun olaraq baharın gəlişini - Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır. İqtisadiyyatının gündən-günə inkişaf etdiyi müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndləri bu gün bir-birindən rəngarəng bayram tədbirləri ilə Novruzu qeyd etməyə hazırlaşır.

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar, o cümlədən novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır, tonqallar ətrafında olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, ot tayalarından, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

Bayram şənlikləri zamanı tonqallar tam

söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif küləyin əsməsi nəticəsində də tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərini və ya həyətyanı sahələrə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.

Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

Bayram tədbirləri zamanı müəssisə və təşkilatlar, təhsil ocaqları, xüsusən də internat tipli və digər məktəblər yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər.

Milli bayramımızı acı sonluqla başa vurmamaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.

Vətəndaşlara bir daha tövsiyə edirik ki, milli bayramımız olan Novruz bayramı günlərində yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilsin. Hər hansı bir yanğın hadisəsi ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin **"112" qaynar xəttinə** və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin **"101"** xidmətinə məlumat verilməsi xahiş olunur.

Fövqəladə Hallar Nazirliyinin
Dövlət Yanğın Nəzarəti Xidmətinin
Muğan Regional Dövlət
Yanğın Nəzarəti İdarəsi

ABUNƏ OL, BİRLİKDƏ YAŞADAQ!

Baş redaktor
B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250

Qəzet ayda bir dəfə 8 səhifə (bəzən 12, 16) olmaqla çap edilir.
Abunə olmağı unutmayın!